**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU**

# ŞƏRƏF XANIM

## QƏZƏLLƏR

Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Bakı – Nurlan – 2006**

# ŞƏRƏF XANIM

## QƏZƏLLƏR



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

**Bakı – 2006**

Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu elmi şurasının 23 iyun 2006-cı il tarixli 6 №-li iclasının qərarı ilə nəşr olunur.

Toplayanı:
**Əlabbas Müznib**

Mətni transfoneliterasiya edib nəşrə
hazırlayan və ön sözün müəllifi:
**Samirə Əliyeva**

Redaktoru:
**Azadə Musabəyli,**
*filologiya elmləri doktoru*

Rəyçi:
**Məmməd Adilov,**
*filologiya elmləri doktoru*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

## ÖN SÖZ

XIX əsr türk divan ədəbiyyatının görkəmli simalarından biri olan Şərəf xanım 1809-cu ildə İstanbulda anadan olmuşdur. Atası Məhəmməd Nəbil bəy dövrünün tanınmış şair və ziyalılarından biri idi. Osmanlı mənbələrində Şərəf xanımın haqqında çox az məlumat olduğundan onun həyatının təfərrüatı barədə bilgi azdır. Bursalı Məhəmməd Tahirin "Osmanlı müəllifləri" adlı kitabından oxuyuruq: "Mətbu divan sahibəsi Şərəf xanımdır ki, şeyxülislam Aşir əfəndi mərhumun əhfadından olan şüəradan Nəbil bəy mərhumun kərimısidir. Suzişli mərsiyələri, aşiqanə münacat və qəsaidi vardır. 1264 tarixində irtihal edərək Yeniqapı mövləvixanəsində çinar altına dəfn edildi. Təriqətən mövləvidir".



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bundan əlavə, Məhəmməd Zehninin “Məşahirün-nisa”, Şəmsəddin Saminin “Qamusül-əlam”, Fətin Davudun “Təzkireyi-Fətin”, Məhəmməd Sürəyyanın “Sicilli-Osmani” və başqa Osmanlı mənbələrində Şərəf xanımın haqqında qısaca məlumatlara rast gəlmək olur. Bütün bu mənbələrdə verilən məlumatlardan belə nəticə çıxarmaq olur ki, Şərəf xanım ilk təhsilini atasından almış, ərəb və fars dillərini mükəmməl öyrənmiş, İslam dininin əsaslarına vaqif olmuş, əruz və qafiyə elminin incəliklərinə dərindən yiyələnmişdir. Şərəf xanım İstanbul ədəbi mühitindən kənarda qalmamış, dövrünün şair və ziyalıları ilə ədəbi əlaqələr yaradaraq, onlarla şeirləşmiş, zəmanəsinin bir çox məşhur şairlərinə nəzirə yazmışdır. Ömrünün sonuna qədər ailə qurmayan və İstanbuldan kənara çıxmayan Şərəf xanım 1861-ci ildə 53 yaşında vəfat etmişdir.

Şərəf xanımın divanı ilk dəfə, ölümündən yeddi il sonra 1867-ci ildə İstanbulda işıq üzü görmüşdür. İkinci dəfə isə ölümündən on beş il sonra, 1875-ci ildə çap olunmuşdur. Şərəf xanımın divanının cəmi bir əlyazma nüsxəsi günümüzə gəlib çatmışdır. XIX əsrin sonlarında yazılan bu əlyazma İstanbul Universiteti kitabxanasında saxlanılır.

XX əsrin qırxıncı illərindən başlayaraq Türkiyədə Şərəf xanımın həyat və yaradıcılığı ilə maraqlanmağa başlanıldı. İlk dəfə olaraq 1941-ci ildə Həmdi Nazim Ertək tərəfindən “Şair Şərəf xanım” adlı 30 səhifədən ibarət kiçik bir əsər çap olundu. 1994-cü ildə isə Yusif Mardin Şərəf xanım haqqında 238 səhifəlik bir kitab nəşrə hazırladı. Bütün bunlara baxmayaraq, bu kitabların heç biri Şərəf xanımın həyat və yaradıcılığını tam-dolğun əks etdirə bilməmişdi. Lakin 2002-ci ildə türk alimi professor-doktor Mehmet Arslan Şərəf xanımın bütün külliyatını



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

çapa hazırlamış və nəşr etdirmişdi. Professor Mehmet Arslan kitaba ön söz yazmış, Şərəf xanımın həyatı və yaradıcılığı haqqında məlumat vermiş, divanın tekstoloji tədqiqini aparmışdır.

Azərbaycanda isə Şərəf xanımın yaradıcılığı ilə hələ XX əsrin əvvəllərindən maraqlanmağa başlamışlar. Bu dəyərli şairənin Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda "B-1299" şifrəsi altında mərhum şair və tədqiqatçı Əlabbas Müznib tərəfindən köçürülmüş qəzəlləri saxlanılır. Qeyd etmək lazımdır ki, Əlabbas Müznib bir çox Azərbaycan və türk şairinin əsərlərini toplayaraq çapa hazırlamışdı. Lakin təəssüflər olsun ki, keşməkeşli 30-cu illər repressiyası bir çox ziyalılarımız kimi onun da həyatına son qoymuş, bu əsərləri çap etdirmək ona müyəssər olmamışdı. Ə.Müznibin müxtəlif şairlərin yaradıcılığından topladığı həmin əsərlərdən bir neçəsi son illər institutumuz tərəfindən müasir əlifbamıza transfoneliterasiya olunaraq çap edilmişdir. Ümidvarıq ki, bu iş davam edəcəkdir.

Əlabbas Müznib tərəfindən köçürülmüş və üzərində çalışdığımız bu əlyazmada Şərəf xanımın 189 qəzəli yer almışdır. Bundan əlavə, institutumuzun xəzinəsində "II-329" şifrəsi altında İstanbulda, "Mətbəeyi-Amirə"də 1284 hicri, 1867 miladi ilində çap olunmuş bir nüsxəsi də saxlanılır ki, fikrimizcə, Əlabbas Müznib qəzəlləri məhz bu çapdan köçürmüşdür.

Şərəf xanım ənənəvi divan ədəbiyyatının XIX əsrdə yetişmiş ən müqtədir qadın nümayəndələrindən biridir. Bir çox dəyərli şairlər yetişdirən bir nəslin nümayəndəsi olan Şərəf xanım, şeirlərindən göründüyü kimi, İslam qayda-qanunlarına riayət və hörmət edən dindar bir insandır. Bütün bunlarla



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

yanaşı, Şərəf xanım həm də bir təriqət əhli və təsəvvüf şairidir. Mövləvi təriqətinə mənsub olan Şərəf xanım digər təriqətlərə və bu təriqətlərin şeyxlərinə xüsusi hörmət göstərərək, həmin ehtiramı öz divanında bir çox mənzumələr ilə bildirmişdir. Xüsusən, Mövlana Cəlaləddin Rumiyə olan eşqini qəsidə və qəzəllərində tez-tez dilə gətirmişdir.

Fariğəm qeydi-cəhandan, şaha, yoxdur minnətim,
Eylədim cayi-əməl dərgahi-Mövlanayi bən.

Və ya,

Kəsməm ümmid bihəqqi-Mövlana,
Yenə baqi kəmali-himməti-şeyx.

Başqa bir qəzəlində Mövlananı özünə pir hesab edərək bir dərviş kimi ondan ehsan istədiyini dilə gətirir:

Olsa dilxahım əcəbmi, feyzi-Mövlana bənim,
Varmı bir dərviş kim, pirindən ehsan istəməz.

Şərəf xanım divan ədəbiyyatında istifadə olunan bütün şeir növlərinə müraciət etmişdir. Qəzəl, qəsidə, təxmis, müxəmməs, müsəddəs, mürəbbe, müsəmmən, tərkibbənd, tərcibənd, müstəzad, rübai, qitə və sairə janrlardan istifadə etmişdir. Şeir dilinin sadə olmasına baxmayaraq, şair irfani terminlərə tez-tez müraciət etmiş, divanında mey, badə, məsti-xumar, ləli-ləbi-yar, şərab, busə və sairə təsəvvüfi istilahlara yer vermişdir. İrfani məna kəsb edən bir qəzəlində deyir:



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Hər nə dəm məclisdə saqi cam kəndin göstərir,
Busi-lə`lə surəti-ibram kəndin göstərir.

Surəti-hüsni edincə əksi-mir`ati-zəmir,
Daima ol şuxi-siməndam kəndin göstərir.

Şərəf xanım təvazökar bir şairədir. Bir qəzəlində özü haqqında belə deyir:

Şərəf, yox səndə zərrə qabiliyyət gün kibi zahir,
Nə ümmid ilə bilməm, ərzi-ürfan etmək istərsən.

Başqa bir yerdə:

Vəznü mə`nadan əgər olsa da ari Şərəfin,
Şe`rini müntəxəbi-həzrəti-Həssan eylə.

Həyatını maddi sıxıntılar içində keçirən Şərəf xanım, şeirlərində dəyərinin bilinməməsindən, çəkdiyi maddi çətinliklərdən şikayət edir. Şairə özünü ondan bir qədər əvvəl yaşayıb-yaratmışqadın şairlərlə – Leyla və Fitnət xanımla müqayisə edərək Şərəf, Leyla və Fitnətin bir də dünyaya gəlməyəcəyini, onların qədrinin bilinməsini söyləyir:

Xahü naxah Şərəfin qədrini bilsin yaran,
Aləmə bir dəxi Leyla ilə Fitnət gəlməz.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şərəf xanım yenə də ümidini itirmir, sağlığında insanın qədri bilinməsə də bir gün gələr əsərlərinin əldən-ələ gəzəcəyinə inanır:

Sağlığında kişinin qədri bilinməz, Şərəfa,
Gəzər əldən-ələ bir gün ola kim asarın.

İnanırıq ki, Şərəf xanımın özündən sonra qoyub getdiyi bu zəngin irs daha geniş öyrəniləcək, araşdırılacaq və geniş oxucu kütləsinə çatdırılacaqdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Laübaliməşrəbəm, qeydi-vəqar olmaz bana,
Aşiqi-şuridəyəm, namusü ar olmaz bana.

Cami-ləbrizi-məhəbbətlə əzəl məst olmuşam,
Badeyi-gülgun ilə dəf`i-xumar olmaz bana.

Ruzü şəb ol mahi-mehrəngizə əzm etsəm, nola,
Rindü rüsvatinətəm, leylü nəhar olmaz bana.

Yanmadıqca atəşi-eşqi-həqiqətlə tənim,
Rahətü aramü zövqi ixtiyar olmaz bana.

Dərgəhi-dildardə etdim təvəttün bə`d əzin,
Həmçü Qeysü Kuhkən tərki-diyar olmaz bana.

Bin pəripeykər mələkru ərzi-didar etsə də,
Yardən qeyri cəhandə kimsə yar olmaz bana.

Hərçi badabad, olursa yar əgər razi, Şərəf,
Can fəda etməkdə hiç səbrü qərar olmaz bana.

* * *

Həzar eşq seyri-gülistan istərmi, istər ya,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bəhar əyyami izhari-fəğan istərmi, istər ya.

Təmaşa etməgə mir`ati-dildən səri-rüxsarın,
Könüldə nəqşini dilbər nihan istərmi, istər ya.

Gəlincə bəzmə bin naz ilə ol saqiyi-güləndam,
Şərabi-əşki etmək dərmiyan istərmi, istər ya.

Bana etdiklərin ol qəmzəvü əbrulərin bir-bir,
O şuxə eyləmək ərzü bəyan istərmi, istər ya.

Nola tənzir edərsəm, ey Şərəf, bunca nəzmə ustadi,
Bu şe`ri-nov də əlbət imtəhan istərmi, istər ya.

* * *

Virdi-rüxsarını virdi-tərə sor, sorma bana,
Çaşniyi-ləbini Kövsərə sor, sorma bana.

Dili-puladını nərm eyləmədiysə, ey şux,
Əsəri-ahımi sən mərmərə sor, sorma bana.

Məst ikən dün gecə ağzın aramış məclisdə,
Busə dair xəbəri sağərə sor, sorma bana.

Halımi ərz edəməm, bir ucı şəkvayə çıxar,
Çəkdigim dərdü qəmi axərə sor, sorma bana.

Olmaq istərsən əgər vaqifi-zəxmi-sinəm,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Səbəbin var, Şərəfa, dilbərə sor, sorma bana.

* * *

Lütf edüb cürmimi bildir, sənəma, noldı sana,
Nədən etdin bəni bu rütbə fəda, noldı sana.

Bana təşrifini və`d etmiş ikən gəlmədin ah,
Adətin etmək idi əhdə vəfa, noldı sana.

Yadə uydun, bəni yad eyləmədin nicə zəman,
Məşrəbin böylə degildi, əcəba, noldı sana.

Bu qədr cövrə səbəb nə, biləməm nöqsanım,
Söylə Allah içün, ey huriliqa, noldı sana.

Şərəfi-zarı unutdun nə əcəb, sultanım,
Neylədi, netdi o biçarə, əya noldı sana.

* * *

Qalmadı çəkməgə canımda ləyaqət, ya Rəbb,
İrsün əncamə, yetər rənci-fəlakət, ya Rəbb.

Nikü bəd, xeyrü şər əhvalimə vaqifsən sən,
Ərzi-hal etməgə varmı sana hacət, ya Rəbb.

Xəstəyəm xəstə mədəd, dərdimə dərman eylə,
Ver şəfaxaneyi-lütfindən ifaqət, ya Rəbb.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Düşdi girdabi-məzəllətdə, yatur kəştiyi-dil,
İrişə sahili-ümmidə səlamət, ya Rəbb.

Nə qədər mücrim isə kəndi qulundur, yenə sən,
Əl-əman, eylə Şərəfi-zarə inayət, ya Rəbb.

* * *

Pərvərdeyi-lütf et güli-xəndanımı, ya Rəbb,
Guş eyləyə bu naləvü əfğanımı, ya Rəbb.

Bu ahi-firavanıma ver lütf ilə tə`sir,
Nərm eyləyə ta kim, dili-cananımı, ya Rəbb.

Kətm eylər isəm də yenə izhar edər əlbət,
Ahım şərəri atəşi-pünhanımı, ya Rəbb.

Hər dəmdə görüb cuyi-sirişkim, deməz ol şux,
Şad eyləyəyim aşiqi-nalanımı, ya Rəbb.

Dönsün Şərəfin üstünə pərvanəvəş ahim,
Yax atəşi-eşqə dili-suzanımı, ya Rəbb.

* * *

Lal eylədi firqət dili-nalanımı, ya Rəbb,
Alma, kərəm et, həsrət ilə canımı, ya Rəbb.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bir xəstədil, işkəstədərun aşiqi-zarəm,
Vüslət ilə ver dərdimə dərmanımı, ya Rəbb.

Hiç dermi Şərəf yari-fədakar, əcəba kim,
Həsrətdə qodum aşiqi-giryanımı, ya Rəbb.

Yar ilə edüb həşrə qədər yekdilü yekcan,
Əğyar əlinə vermə giribanımı, ya Rəbb.

* * *

Tez keçərmiş məgər əyyami-şətarət, ya Rəbb,
Dəmi-qəm bulmaz imiş leyk nəhayət, ya Rəbb.

Şəbi-yeldayi-fəlakət uzadı toğmazmi,
Kövkəbi-tale\`imə mehri-səadət, ya Rəbb.

Qaldı girdabi-məşəqqətdə necə dəmdir əcəb,
Fülki-ümmidimə heç yoxmı səlamət, ya Rəbb.

Bəxti-dunimmi, fələkmidir edən rəncidə,
Qənğisindən edəyim sanə şikayət, ya Rəbb.

Döndürür yə\`s sima\`xaneyi-qəmdə Şərəfi,
Həzrəti-pirdən irməzmi inayət, ya Rəbb?

* * *

Fəğani əndəlibi-dilşikəstin xar içündür həb,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Degil bihudə ahi-aşiqan, əğyar içündür həb.

Səba, aramgahi-könlümi dağıtma, çün şanə,
Pərişan olduğum ol türreyi-tərrar içündür həb.

Bəlayi-eşqə xoşnudəm, cəfayi-yar mətlubim,
Bənim fəryadi-naləm həsrəti-dildar içündür həb.

Təhi sanma, qov tə`ni, zahid, üşşaqi-cigərrişin,
Bu ahü nalişi, bu suzişi dildar içündür həb.

Şərəf, azurdə olsam da yenə bən edəməm şəkva,
Nə çarə, çəkdigim ənduhü möhnət yar içündür həb.

* * *

Sübhədək bəxti-siyəhlə həsbi-hal etdim bu şəb,
Düşmənə, ey mahru, ərzi-məlal etdim bu şəb.

Qılca qaldı canım əmma, sünbüli-şəbbu ilə,
Bəhsi-zülfin uzadub çox qeylü qal etdim bu şəb.

Dönmədi bir gün muradımca təfəkkür eyləyüb,
Yenə çərxi-kinəxahə infi`al etdim bu şəb.

Ta səhər hər gecə dərdi-eşq ilə bidarəm ah,
Sanma ancaq xabü arami məhal etdim bu şəb.

Salma, qoç başın içün fərdayə eydi-vəslinə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Canı qurban nəzr edüb qanım həlal etdim bu şəb.

Bəstəri-qəmdə yatur, dilxəstəyəm dərman içün,
Ağlayub həqdən təmənnayi-vüsal etdim bu şəb.

Macərayi-eşqi bir nəbzə edüb şərhü bəyan,
Bu Şərəf biçarəyi heyrətlə lal etdim bu şəb.

* * *

Ol sərvi-xoşxuram nə aləmdədir, əcəb,
Ol qönçeyi-məram nə aləmdədir, əcəb.

Aməd-şüd  eylədikcə səba bən qəribə yar,
Etməzmi bir səlam, nə aləmdədir, əcəb.

Ey peyki-ah, görməyə ol nazəninimi,
Qıl sə`yü ehtimam, nə aləmdədir, əcəb.

Yox gördigim şikəstədili, kimə sorayım,
Yar ilə sübhü şam nə aləmdədir, əcəb.

Ağlar Şərəf fərağ ilə gecə səbahədək,
Ya Rəbb, o bədri-tam nə aləmdəddir, əcəb.

* * *

Ətayi-vəsl ilə üşşaqə icrayi-səxalıq yap,
Nolur bir kərrə də əğyarə, cana, bivəfalıq yap.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gərəkdir adəmə nikü bədi fərq eyləmək, yoxsa,
Dənitəb` anlamaz iyilik yap, istərsən fənalıq yap.

Təvazö` əhlinin qədri olur balatər, əlbəttə,
Olursan padişəh zahirdə, batində gədalıq yap.

Bənimlə ta bəkey biganəlik, ey bəxti kəcrəftar,
Arada gah, bari, xahü naxah aşinalıq yap.

Xəyali-yar edər dil xanəsinə hər gecə təşrif,
Yetiş, ey şö`leyi-ahi-dərunim, rəhnümalıq yap.

Şərəf, gəh şərqi söylə, gəh qəzəl vəsfi-dəhanında,
Süxənsəncanə gəl, bu vəch ilə müşkilgüşalıq yap.

* * *

Lal etdi həsrətin, dəxi gəlməzmisən, əcəb,
Öldürdi firqətin dəxi gəlməzmisən, əcəb.

Bitməzmi nicə bir qəni insafü mərhəmət,
İllərlə ülfətin dəxi gəlməzmisən, əcəb.

Yad eylə ruzi-məhşəri, ey şux, canıma
Qıymaqmı niyyətin, dəxi gəlməzmisən, əcəb.

Bir gün həlak edər bəni, əlbəttə, sevdigim,
Ümmidi-vüslətin dəxi gəlməzmisən, əcəb.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Həp yadə lütfin, ah, Şərəf dilşikəstəyə,
Hiç yoxmi şəfqətin, dəxi gəlməzmisən, əcəb.

* * *

Mahtabım, qürreyi-ünsiyyətin kimdir bu şəb?
Kimlərin mehmanısan, həmsöhbətin kimdir bu şəb?

Sübh olunca nuşi-səhbayi-fəraq etdim əcəb,
Qənği bəzmin məstisən, gərmülfətin kimdir bu şəb?

Dizbədiz, zanubəzanusən kiminlə ah, ah,
Layiqi-lütfin, səzayi-rəğbətin kimdir bu şəb?

Qənği çeşmə tutiya oldun, təbibim, əl-əman,
Xəstə çox, ehyayə aya niyyətin kimdir bu şəb?

Biz Şərəflə ta səbah olunca qan yutduq sənin,
Kim bilür, dilsiri-xani-vüslətin kimdir bu şəb?

* * *

Meyi-vüsal ilə dil nəşə`dar olurmı əcəb?
Bu bəzmgahdə dəf`i-xumar olurmı əcəb?

Buyursun ol şəhi-hüsnüm, dil ərzi-hal etdi,
Pəyamə müntəziri-dərkənar olurmı əcəb.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gedərmi böylə fəlakətlə yoxsa, fülki-dilə,
Murad üzrə əsər ruzigar olurmı əcəb.

Bu tazə dağ ilə bir laləzardır sinəm,
Müfərrih ol gülə cayi-qərar olurmı əcəb.

Rəqibə etdiyi hər aşiqin duası, Şərəf,
Qərini-dərqəhi-Pərvərdigarə olurmı əcəb.

* * *

Bir aşiqi-şuridəyəm, inkarə nə minnət,
Bən məsti-ələstəm, meyi-sərşarə nə minnət.

Hər ləhzə xəyali dilə etməkdə təcəlli,
Vüslət içün ol şuxi-cəfakarə nə minnət.

Əgləncə yetər naləm ilə qönçeyi-dağım,
Gülzarə, həzarə, güli-pürxarə nə minnət.

Ərz etməz isə yarə bənim dərdi-dərunim,
Bu  giryəyə, bu ahi-şərərbarə nə minnət.

Şimdən gərü azadəligin ləzzətin aldım,
Dildarə müdara, Şərəf, əğyarə nə minnət.

* * *

Ləbi Behzadə, zülfi Maniyə yarın verür heyrət,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bulunmaz almağa təsvirini bir vəchilə surət.

Nəvaziş etsə də naqisdir əlbət xeyri şərrindən,
Gəlürmi aşiqə əğyari-bədəxtərdən əmniyyət.

Bıraqdı getdi təşrifiylə, ehya eyləmişkən yar,
Nolur etsəydi rahətsizligə bir şəb dəxi qeyrət.

Fəraqiylə sirişkim ol qədr cuşü xüruş etdi,
Gəlüb sonra görəydi, halimə eylər idi şəfqət.

Misali-cənnət idi yar ilə, oldı Şərəf şimdi,
Bana hər guşəsi qəmxanəmin bir məskəni-firqət.

* * *

Həqqbin isən, ey dil, gözət adabi-həqiqət,
Əshabi-məcaz olma, ol ərbabi-həqiqət.

Üryan qalur novhəvəsin qəddi-ümidi,
Sidq əhlinə amadədir əsvabi-həqiqət.

Hər mürği-çəmənzar olamaz bülbüli-şeyda,
Hər başə taxulmaz güli-şadabi-həqiqət.

Bir gün çəkər əlbət, çıxarır rahi-nicatə,
Bənd olsa əgər gərdənə qüllabi-həqiqət

İrməksə, Şərəf, sahibi-məqsudə muradın,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sal fülki-dili, qərq edə girdabi-həqiqət.

* * *

Leyla ilə Məcnundamı, də`vayi-məhəbbət,
Qondı qəti çox başlara sövdayi-məhəbbət.

Heç qalmadı boş yerləri Məcnun ilə Qeysin,
Üşşaq ilə məmlu yenə səhrayi-məhəbbət.

Yox minnətimiz sağəri-gülguninə, saqi,
Məst etdi bizi badeyi-həmrayi-məhəbbət.

Razi isən azarinə, əğyarinə yarın,
Ey aşiqi-şeyda, nə bu qovğayi-məhəbbət?

Bir dəmdə könül eylədi taracü pərişan,
Çox əql Fülatunları, yəğmayi-məhəbbət.

Dönməzmi sima`xaneyi-xatirdə xəyalın,
Çalındı əzəl guşimə çün nayi-məhəbbət.

Əlbəttə, Şərəfdir bilürəm ruyi-cəhandə,
Bir bənciləyin var isə rüsvayi-məhəbbət.

* * *

Kətmi müşkil atəşi-eşqi əyan etmək də güc,
Şö`leyi-şəm`i-füruzani nihan etmək də güc.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İntizari-rö`yəti-canan, vəli asan degil,
Vəsl içün əmma, rəqibə imtinan etmək də güc.

Şayəd eylər xatirin azurdə ol mahın deyü,
Dudi-ahi ru bərahi-asiman etmək də güc.

Yarə tə`limi-vəfa eylərdim, əmma neyləyim,
Zur ilə namehribani mehriban etmək də güc.

Ayəti-hüsn ilə çeşmi tərki-sehr etmək, Şərəf,
Kafəri-nahəqpərəsti müsəlman etmək də güc.

* * *

Yaxdı canım fəraqi-həzrəti-Şeyx,
Əl-əman, atəşi-məhəbbəti-Şeyx.

Azimi-aləmi-cəmal oldı,
Ah gəlmiş, nə çarə növbəti-Şeyx.

Etsə qurban nolurdi qoç başə,
Bu dəmi görmədən kəraməti-Şeyx.

Bükdi qəddi-təhəmmülim, billah,
Bari-dərdü bəlayi-həsrəti-Şeyx.

Kəsməm ümmid bəhəqqi-Mövlana,
Yenə baqi kəmali-himməti-Şeyx,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şərəfasa, İlahi, bir dərviş,
Olmasun mübtəlayi-firqəti-Şeyx.

* * *

Aşiqə bu cövri-peydərpey, bu istiğna nədir?
Qəsdin öldürməkmi, ehyamı, əcəb, cana, nədir?

Aqibət mülki-dərunim vəqfi-həsrət eylədin,
Niyyətin şimdən gerü, ey şuxi-mustəsna nədir?

Sənsiz aram etdigim aləmdə vəsl ümmididir,
Olmasa didar, zövqi-cənnəti-ə`la nədir?

Birdir indimdə meyi-nab ilə abın qiyməti,
Nəş`ə yox könlümdə, bilməm sağəri-səhba nədir.

Bənzəməz Fərhadü Qeysə halətü keyfiyyətim,
Var bənim başimdə, ya Rəbb, özgə bir sevda nədir?

Müstəqim ol, etmə adabi-məhəbbətdə qüsur,
Hər bəlayə ver riza, əğyar ilə qovğa nədir?

Talibi-dərd olmadır əhli-dilə fərmani-eşq,
Ya səri-kuyində yarın bunca vaveyla nədir?

Olmadın eyd ilə novruz ilə məsrurü bəkam,
Bilmədim getdi Şərəf mətlubini hala nədir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İncidir dərvişi-dilrişin fələk zənnim məgər,
Bilməyür yahu ərənlər qeyrəti-Münla nədir.

* * *

Saqiya, məclisdə yari nəş`əyab olsun da, gör,
Dideyi-badamını məsti-şərab olsun da, gör.

Sızlənüb, zahid, yanub-yaxıldığum tə`n eyləmə,
Sixi-nari-eşq ilə bağrın kəbab olsun da, gör.

Qisseyi-Fərhadü Məcnundən müfəssəl sevdigim,
Dastani-eşqi şərh etdim, kitab olsun da, gör.

Şimdi göstərməm, cigər qanilə yazdım xatirə,
Dəftəri-hicranını ruzi-hesab olsun da, gör.

Sahibi var aləmi yığar, rəqiba, başinə,
Bən qarışmam, xaneyi-qəlbim xərab olsun da, gör.

Yarə ərz etdim, təbiba, sineyi-məcruhimi,
Yarə var göz görmədən, leyk intixab olsun da, gör.

Sən də görməzsən hələ kim duş o yari-məhvəşin,
Çeşmi-məxmuri, Şərəf, bitabü xab olsun da, gör.

* * *

Lütf eylə, Xudaya, bana cananımı göndər,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Can mülki xərab olmada, sultanımı göndər.

Bir aşiqi-dilxəstəvü məcruhi-fəraqəm,
Ya Rəbb, kərəm et, dərdimə dərmanımı göndər.

Yox bəndə təhəmmül bu qədr həsrətə, ya Rəbb,
Ya yarı bana, yarə yaxud canımı göndər.

Bülbül kibi şəb ta bəsəhər turma, əman tez,
Var ahü fəğanım güli-xəndanımı göndər.
Hər halimə agahsən, edüb bari mürüvvət,
Sən get də, Şərəf, yari-süxəndanımi göndər.

* * *

Necoldi iltifati-yarə şayan olduğum dəmlər,
Nə oldi qibtəbəxşayi-rəqiban olduğum dəmlər.

Kəmali-cuşişi-eşqi-məhəbbətlə sultanım,
Gəlürmi yadə bəzmində qəzəlxan olduğum dəmlər.

Düşüb sayə kibi əyağinə yüz sürdügim yerlər,
Əcəb xatirdəmi, xak ilə yeksan olduğum dəmlər.

Nə ə`la vəqt imiş keçdi, dəriğa, bilmədim qədrin,
Qüsurimlə bənim məqbuli-canan olduğum dəmlər.

Şərəfvəş olmadan həsrətlə olurmi əcəb ruzi,
Yenə hüsni-cəmali-yarə heyran olduğum dəmlər.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Lal eylədi heyrətlə dili möhnəti-əğyar,
Bir gün bəni öldürsə gərək qeyrəti-əğyar.

Bir kərrə, düşün sən də, a birəhmü mürüvvət,
Hiç birmidir üşşaq ilə mahiyyəti-əğyar?

Ya Rəbb, o cəfapişə ilə ta dəmi-məhşər,
Bulmazmı nəhayət, əcəba, ülfəti-əğyar.

Bən eylər ikən yolınə canü dili qurban,
Hər dəm yenə artmağdə neçün hörməti-əğyar.
Hər aşiqi rəncideyi-xatir edir əlbət,
Səbr eylə, Şərəf, sən də, budur adəti-əğyar.

* * *

Çağlayan cuyi-sirişki-çeşmi-pürxunimmidir?
İnləyən şəb ta səhər bu qəlbi-məhzunimmidir.

Xaki-payindən bəni məhrumü məhcur edən, ah,
Kəsrəti-eşqinmi bilməm, taleyi-dunimmidir.

O saçı leyla diməz kuyimdə cövlan eyləyən,
Bəsteyi-zənciri-eşqəm, kəndi məcnunimmidir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çıxdı istiqbalə əqlü səbrü aramım əcəb,
Mihmani-dil, xəyali-qəddi-mövzunimmidir.

Möhnətü firqətlə meydani-məhəbbətdə, Şərəf,
Ah edüb qan ağlamaq mö`tadü qanunimmidir.

* * *

Lücceyi-əmvaci-firqət möhnəti-hicrani-yar,
Başdan aşdı, yoxmı ya Rəbb, qayəti-hicrani-yar.

Bir tərəfdən üstümə eylər qülu kafər rəqib,
Bir tərəfdən də hücum kəsrəti-hicrani-yar.

Yıxdı qəsri-xatiri-viranımi etdi xərab,
Qeyrəti-əğyar, zərbi-qüvvəti-hicrani-yar.

Bərgüzar olsun könüldə, iltifati-şahdən,
Mö`təbərdir nəzdimizdə qiyməti-hicrani-yar.

Hiç vəfadə qeyrə tə`xir etməz əmma, çün Şərəf,
Həp bana eylər təsadüf növbəti-hicrani-yar.

* * *

Hanı o şəb ki, görüb hali-pürməlalimi yar,
Nühüftə razi-dərunim edərdi istifsar.

Hanı o şəb ki, nigah eylədikcə tabi-rüxi,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Alovladırdı yeni başdan atəşim təkrar.

Hanı o şəb ki, şəbi-qədrə eylərəm tərcih,
Edərdi sübhədək ərzi-ru ol məhrüxsar.

Hanı o şəb ki, qalub yar ilə təkü tənha,
Nə kimsə vaqifü mane`, nə var idi əğyar.

Hanı o şəb ki, olub badeyi-vüsal ilə məst,
Könüldə yox idi hiç möhnətü qəmü əfkar.

Hanı o şəb ki, verüb əqlü səbri yəğmayə,
Dilərdi eyləyə dili-cani payi-yarə nisar.

Hanı o şəb ki, o gülrüxlə dizbədiz oturub,
Həzar şərm ilə dərdim edər idim izhar.

Hanı o şəb ki, Şərəf, keçdi həmçü xabü xəyal,
Əcəbmi, uçsa o dəmlər gözümdə leylü nəhar.

* * *

Dili-şuridə, heyfa, yarə yar əğyarə maildir,
Bilinməz hikməti, bülbül gülə, gül xarə maildir.

Olursan pürqəzəb, bən ərzi-hal etdikcə, sən əmma,
Cəfakarəm, məzacın çarə nə, əğyarə maildir.

Şikayət sanma, rəncü zəxmi-eşq eylər isəm izhar,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Təbibə xəstə əlbət dərdini əş`arə maildir.

Qaçınmaz, şö`leyi-didari-yarə can atar daim,
Bənim mürği-dilim pərvanəasa narə maildir.

Edər təhsin nəzmi-dilgüşasın eyləsən tənzir,
Şərəf, təb`i-səlisin böylə xoş göftarə maildir.

* * *

Xatirə lə`li-ləbin gəldiyi dəm can ağlar,
Sanma, həsrətlə həman didələrim qan ağlar.

Bir zəman badeyi-vəslinlə səfayab oldı,
Şimdi firqətlə könül hərdəmü hər an ağlar.

Yarə etməz əsər əmma, bən edərkən fəryad,
Bülbül ağlar, çəmən ağlar, güli-xəndan ağlar.

Bir gün, əlbəttə olur etdiyi cövrə nadim,
Böylə bir aşiqə qıydım, deyü canan ağlar.

Hicrü azarü fəraq ilə Şərəfi-zar həman,
Gecələr ta bəsəhər eyləyüb əfğan ağlar.

* * *

İnfialə noldı bais, dilbəra, bilməm nədir,
Mücriməm, əmma günahım haliya bilməm nədir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əmrə fərmanbər qulam, minqeyri-həddi-zatını,
Sevdigimdən qeyri üsyanü xəta bilməm nədir.

Dami-zülfində tutulmuş bir əsirindir könül,
Ta ölüncə qeydü azadü rəha bilməm nədir.

Gəlmədin, gərmabeyi-dil yandı nari-hicr ilə,
Qaliba, şərtincə təşrifin rica bilməm nədir.

Ol qədr heyrani-eşq oldum rəhi-yarə Şərəf,
Can fəda etməkdən özgə müddəa bilməm nədir.

* * *

Hər nə dəm məclisdə saqi cam kəndin göstərir,
Busi-lə`lə surəti-ibram kəndin göstərir.

Surəti-hüsni edincə əksi-mir`ati-zəmir,
Daima, ol şuxi-siməndam kəndin göstərir.

Busi-lə`lə eyləsə iqrar xəndəriz olur,
Ləblərində və`di-biəncam kəndin göstərir.

Əhli-eşqə kətmü ixfa eyləmək ismin əbəs,
Mehr iqbalində əlbət nam kəndin göstərir.

Getmə, yer qalmaz, Şərəf, pərvanəvəş hali-dili,
Suzi-qəlbi-aşiqi-nakam kəndin göstərir.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Ey könül, dərdi-dili sanma ki, ol mah bilür,
Gecələr çəkdiyini sübhə qədər ah bilür.

Cövrini can kibi sinəmdə nihan etsəm də,
Bana, ey şuxi-cəhan, etdigin Allah bilür.

Nəzəri-lütfini zahirdə görüb aldanma,
Zəxmi-tiri-müjeyi-dilbəri cangah bilür.

Yenə rəhm eyləməz ol şuxi-təğafülpişə,
Ey dil, əhvali-pərişanını hərgah bilür.

Sinədə yareyi-sədparəyi etmə təşrih,
Hali-eşqi, Şərəfa, hər dili-agah bilür.

* * *

Ol nə dəmlərdi dilə ərzi-cəmal eylərdi yar,
Göz uciylə daim imayi-vüsal eylərdi yar.

Öldirüb yenə dirildir idi növki-qəmzəsi,
Gündə bin kərrə dili-zarım sual eylərdi yar.

Qəsdi yapmaqdı yeni başdan dili-viranəmi,
Sanma kim, bihudə könlüm payimal eylərdi yar,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İki şahənşah hökm etməz deyü, bir kişvərə,
Təxti-sinəmdə xəyal ilə cidal eylərdi yar.

Hali-düşvari-dərunimdən edərkən kəşfi-raz,
Gəh təğafül, gəh sitəm, gəh infial eylərdi yar,

Bir zəman sə`d idi nəcmi-tale`im şol dənlü kim,
Banə lütf, əğyarimə xişmü cəlal eylərdi yar.

Neyləyim əksinə dövr etdi fələk şimdi, Şərəf,
Ol nə dəmlərdi dilə ərzi-cəmal eylərdi yar.

* * *

Tulü diraz oldı qəmi-intizar,
Bitmədi getdi sitəmi-intizar.

Qeyrilərə nəş`ə verir ruzigar,
Banamı məxsus ələmi-intizar.

Olsa da Loğman, bulamaz çarəmi,
İşlədi ə`zayə səmi-intizar.

Adəmi taşdən pək imiş der idim,
Olmaz isəm gər vərəmi-intizar.

Yoxmı, Şərəf, dəsti-sitəmdən rəha,
Canimə kar etdi qəmi-intizar.

* * *



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gəl bəzmimə erkən də, nə derlərsə, desünlər,
Qıl çeşmimi rövşən də, nə derlərsə, desünlər.

Guş etmə bu aləmdə şəmatati-əduyi,
Zövqində ol əglən də, nə derlərsə, desünlər.

Zəxmi-dili-xungəştəmi bir al ilə yarə,
Ərz eyləyəlim bən də, nə derlərsə, desünlər.

Dil öpməsə lə`lin tutulurmı fəmi-əğyar,
Qıl busə kərəm sən də, nə derlərsə, desünlər.

Qeyri Şərəfin bülbülü tuti kibi oldı,
Mürği-dili nalən də, nə derlərsə desünlər.

* * *

Necoldi daği-eşqin dildə pünhan etdigim dəmlər,
Sana səhrayi-sinəmdə çirağan etdigim dəmlər.

Hanı yad eylədikcə rəngü buyi-virdi-rüxsarın,
Həzarın başinə dünyayi zindan etdigim dəmlər.

Sana müstəlzəmi-şövqi-dübala idi, ey xuni,
Əcəb xatirdəmi, tərki-sərü can etdigim dəmlər.

Gəlürmi yadə, cana, tiği-ahi-atəşinimlə,
Bənim cəm`iyyəti-əğyari talan etdigim dəmlər.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Təbah oldı o nəxli-nazpərvərdin həvasiylə,
Şərəf, barani-əşkim xakə rizan etdigim dəmlər.

* * *

Dari-cününə könlümi Mənsur edər məgər,
Çün Qeysü Kuhkən bəni məşhur edər məgər.

Bir dəm kilidi-məqsədimi görmədim güşad,
Bəxtim dəri-ümmidimi məstur edər məgər.

Nari-mühən pür etdi üsul ilə sinəmi,
Bəzmi-qəmə fələk bəni səntur edər məgər.

Qəsdi təhimi, canə o cəlladi-qəmzənin,
Ruzi-cəzadə aşiqi məsrur edər məgər.

Həddi-Şərəf degil bu zəminə nəzirəlik,
Əmri-vəliyyi-ne`məti məcbur edər məgər.

* * *

Sanma, Pərvin fələkdə şərəri-ahımdır,
Haleyi-mah degildir, sipəri-ahımdır.

Oldı ləxti-cigərim atəşi-möhnətlə kəbab,
Məclisi-əhli-dilə mahəzəri-ahımdır.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bisütuni-qəmi bir həmlədə bərbad edərəm,
Bədəli-tişəsi əldə təbəri-ahımdır.

Həzər etməzmi bənim suzi-dərunimdən o gül,
Xamə əndişəkeşi-şö`ləvəri-ahımdır.

Bu qəzəl olsa səza zivəri-məcmuə, Şərəf,
Xaki-payi-şüərayə əsəri-ahımdır.

* * *

Minnət etməm peyki-ahə, yardən aldım xəbər,
Şadmanəm bə`d əzin, dildardən aldım xəbər.

Ruzü şəb yarın səri-kuyində eylərmiş fəğan,
Hali-düşvari-dili qəmxardən aldım xəbər.

Yar ilə etdikləri zövqi bilirsən, saxlama,
Ey səba, bən zümreyi-əğyardən aldım xəbər.

Qeysü Fərhadə bəni etmiş bədəl sultani-eşq,
Tişeyi-naləm ilə kuhsardən aldım xəbər.

Söylə, kətm etmə, Şərəf, dərdi-dərunin nafilə,
Bən sənin halın bu növgöftardən aldım xəbər.

* * *

Ver badeyi-lə`lin ki, könül şad olacaqdır,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Səhba ilə divanə, dil irşad olacaqdır.

Qəddar fələk naləmi guş eyləməz əmma,
Ahım ilə bir gün o da bərbad olacaqdır.

Seyli-qəmə məcra, sipəhi-möhnətə mə`va,
Aya, nə zəman bu könül abad olacaqdır.

Ol gülbəni-nazın sitəmi böylə galursa,
Fəryadü fəğan aşiqə mö`tad olacaqdır.

Səbr eylə, Şərəf, bu dili-divanədə bir gün,
Zənciri-xəmi-türrədən azad olacaqdır.

* * *

Ərbabi-eşqə, saqi, əşkim şərab göstər,
Sixi-sitəmlə, mürği-könlüm kəbab göstər.

Məhv etdin abi-vəslin diltəşnəgani-eşqə,
Ey çərxi-süflə, bari, şəkli-şərab göstər.

Me`mari-iltifati, əlbəttə eylər abad,
Mülki-dilin o şahi-hüsnə xərab göstər.

Şayəd olur müyəssər seyri-cəmali-dildar,
Ey bəxti-dun, çeşmə bir ləhzə xab göstər.

Qəmzə, Şərəf, verirsə gər nimnigahə rüxsət,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ol afitabə bax da, çeşmində tab göstər.

Şirinməqali-nəzm ol, şad ola ruhi-vəcdi,
Ey xamə, böylə kəndin hazircəvab göstər.

* * *

Qeysü Fərhad bana eşqdə əmsal olmaz,
Bülbüli-dilşüdə pərvanəyə həmhal olmaz.

Olsa aləmdə kişi məzhəri-tovfiqü fəlah,
Sərbülənd olmada möhtaci-pərü bal olmaz.

Etməsin xəncəri-sərtizə nəzər bihudə,
Çeşmi-cəlladi qədər aşiqə qəttal olmaz.

Hiç mümkünmi dili-zar misali-sayə,
Şəhsüvarım əyağın altına pamal olmaz.

Edər işrab, Şərəf, hali-dərunin əmma,
Bu qəzəl dərgəhi-cananəyə iysal olmaz.

* * *

Qəm çəkmə, könül, sanə dilarami bulunmaz,
Vamiq ola, gör eşq ilə Əzrami bulunmaz.

Fəryadi qov, əfğani burax, bağı-cəhandə,
Bülbül isən, ey dil, güli-rə`nami bulunmaz.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Boşmi qalur, etməzsə tənəzzül şəhi-hüsnim,
Bir dəxi könül mülkinə darami bulunmaz.

Sən sağ ola, gör aləm bu bihudə qırılma,
Ayinənə bir tutiyi-guyami bulunmaz.

Nolsun bu təqaza, Şərəf, ol şuxə də guya,
Bir sənciləyin aşiqi-rüsvami bulunmaz.

* * *

Aləmdə, könül, dilbəri-rə`namı bulunmaz,
Vəsl olmaz isə, bihudə xülyamı bulunmaz.

Xamuş edən iczimdir, əfəndim, bəni yoxsa,
Rüxsət olıcaq dildə təmənnamı bulunmaz.

Bilməm nə təkasül edər ol qəmzeyi-xunxar,
Üşşaqını qətl etməgə fətvamı bulunmaz.

Çıx gülşənə, seyr et, sana ey şəm'i-cəhansuz,
Pərvanəmi yox, bülbüli-şeydamı bulunmaz.

Vaqif edəməm yoxsa, Şərəf, istəsəm ol şux,
Ərz etməgə əhvalımı tənhamı bulunmaz.

* * *



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xəyalın olmasa, bir dəm dili-nalanım əglənməz,
Qələt dedim, degil dil, bəlkə təndə canım əglənməz

Bəni məhzun edən əğyarə meylü rəğbətin yoxsa,
Qəmü cövrünlə sanma, xatiri-viranım əglənməz.

Həzarın naləsin hər qönçə dinlər, açılur əmma,
Bənim ahü fəğanımla, güli-xəndanım əylənməz.

Rəqib ilə olur pürnəş'ə, daim eyləsə ülfət,
Nə çarə, bəndəsiylə bir nəfəs sultanım əglənməz.

Edərsən hər kəs ilə hər gecə sən zövqü şövq əmma,
Şərəf bir ləhzə sənsiz, ey məhi-tabanım, əglənməz.

* * *

Vəqti-dilşad xatirə gəlməz,
Fürsəti-yad xatirə gəlməz.

Buləli bən cünun ilə şöhrət,
Qeysü Fərhad xatirə gəlməz,

Məsti-eşgəm, dəmi-fəğanü ənin,
Məhrəmü yad xatirə gəlməz.

Qəsri-könlüm xərab edər canan,
Sonra bünyad xatirə gəlməz.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Himməti-pir olmasa, Şərəfa,
Nəzmi inşad xatirə gəlməz.

* * *

Qeyrə meyl etməz könül, can başqa canan istəməz,
Bir olur şəhrə hökmdar, iki sultan istəməz.

Bildirir ahi-şərərpaşi, yox ərzə ehtiyac,
Atəşi-eşqü məhəbbət kətmü e'lan istəməz.

Arizuyi-cənnət əncaq rö'yəti-didardır,
Yoxsa aşiq yarsız, seyri-gülistan istəməz.

Mübtəlayi-dərdi-əğyarə, təbibim, çarə nə?
Xəsteyi-hicran olan, təbdiri-dərman istəməz.
İntizari-möhnətü cövrün çəkər leylü nəhar,
Sanma, üşşaqın hərimi-dildə mehman istəməz.

Qeyrilərlə daima, sən aləm eylərsən yenə,
Aləmi sənsiz Şərəf, billah, bir an istəməz.

* * *

Eyləsəm də bilirəm könlümi də'vət, gəlməz,
Dəri-cananı məkan eylədi əlbət, gəlməz.

Tiği-cövr ilə qıyar aşiqi-üftadəsinə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Anladım, xatirinə ruzi-qiyamət gəlməz.

Gündə nahəq yerə bin qan dökər didələri,
Yenə bir kərrə o xunxarə nədamət gəlməz.

Neyləsin yar o qədər kəsrəti var üşşaqın,
Bana lütf etməgə qəsd etsə də, növbət gəlməz.

Ülfət etdim bu gecə duşdə görüb Məcnuni,
Hər zəman bir yerə ərbabi-məhəbbət gəlməz.

Görcək yar ilə əğyarı könül bir yerdə,
Çıldırır, yaxud ölür, sağü səlamət gəlməz.

Xahü naxah Şərəfin qədrini bilsin yaran,
Aləmə bir dəxi Leyla ilə Fitnət gəlməz.

* * *

Hüzuri-yardə qovğayi-əğyar eyləmək olmaz,
Gələ qarşu həzarə şəkveyi-xar eyləmək olmaz.

Təhəmmül gücsə də, dərdi-rəqibə hali-düşvari,
Saqın, sui-ədəbdir, yarə izhar eyləmək olmaz.

Məhəbbətdən qərəz canı fədadır dərgəhi-yarə,
Cəfadən, aşiqi-şuridədil, zar eyləmək olmaz.

Açıldı göz-göz oldı, nuri-eynim işlədi canə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bir-iki yarə var, könlümdə timar eyləmək olmaz.

Nühüftə aləmi-eşqin nicə halatı var əmma,
Degil əğyarə, yarə kəşfi-əsrar eyləmək olmaz.

Şərəf, sorma məlalım, anla halim əşkü yə'sımdən,
Tükənməz macəra var dildə, israr eyləmək olmaz.

* * *

Gizləndi əbri-nazə yenə aftabımız,
Barani-əşki etdi rəvan piçü tabımız.

Cövri-fələkdən etmə könül, iştika əzəl,
Yoğrulmuş abi-möhnətü qəmlə turabımız.

Əğyar malik oldı o huri-liqayə ah,
Duzəx edər cinani bizə bu əzabımız.

Biz məsti-cami-badeyi-eşqi-həqiqətiz,
Meyxanə xümlərində bulunmaz şərabımız.

Çəkdiklərimi yazmış idim şimdi yar ilə,
Baxdıq, təmam gəldi hesabü kitabımız.

Bəzmi-fənadə əglənəməz kimsə anladım,
Buymiş ədəm diyarinə ömrüm şitabımız.
Etdik çox dillər ilə, Şərəf, gərçi həsbi-hal.
Fəhm edən olmadı nə imiş iztirabımız,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gəzdirmə dərbədər bizi, ey piri-dəstgir,
Minnət Xudayə, babinə var intisabımız.

* * *

Xəsteyi-eşqü məhəbbət, dərdə dərman istəməz,
Səhhət ümmid eyləməz, Buqratü Loğman istəməz.

Suyi-adabi-məhəbbətdir, nə lazım qiylü qal,
Haləti-eşqi bilür ərbabı, e'lan istəməz.

Yapmağa sə'y et, könül, yıxma, Xudadən qıl həzər,
Mülkini, əlbəttə, sahibxanə viran istəməz.

Peyrov oldun həzrəti-Şövqiyə əmma, ey Şərəf,
Saçma göftar ilə, kimsə ərzi-ürfan istəməz.

Olsa dilxahım əcəbmi, feyzi-Mövlana bənim,
Varmı bir dərviş kim, pirindən ehsan istəməz.

* * *

Ləbim xamuşi-həsrət, bülbülani neyləyim sənsiz,
Bəhar olmuş, həzaran gülistani neyləyim sənsiz.

Bana zindandır hər yer fəraqınla gözüm görməz,
Məkanım olsa bağü bustani neyləyim sənsiz.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yenə fikri-vüsalındır bəni zində edən yoxsa,
Bana bari-girandır, cismü cani neyləyim sənsiz.

Bilür hal əhli hali-aşiqi tə’rifə hacət yox,
Sürur sur ilə tolsa cəhani neyləyim sənsiz.

Fəda etdim Şərəfvəş yolinə nəqdi-həyatım həp,
Degil məqbulim ömri-cavidani neyləyim sənsiz.

* * *

Nicə dəmdir pəyami-yar ilə badi-səba gəlməz,
Zəmanə aşinasindən, könül, umma vəfa, gəlməz.

Edər rövşən qüdumi xaneyi-əğyari biminnət,
Bən etsəm də’vət əmma, bəzmimə ol məhliqa gəlməz,

Şikəst edüb dili-nalanımı lal olmasun dersən,
Teli sazın qırılsa, zərb ilə şitü səda gəlməz.

Gəlür bin aşiqi-şuridədil babində fəryadə,
Bənim kibi vəlakin mübtəlayi-canfəda gəlməz.

Şərəf, Məmduh bəgin ruzü şəb olsam nola məddahi,
Cəhanə böylə hər dəm şairi-rəmzaşina gəlməz.

* * *

Bir dəm aram edəməm, ey məhi-qərra, sənsiz,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bana bir saət olur, bir şəbi-yelda sənsiz.

Bir nəfəs həsrəti-didarinə yox taqətim, ah,
Neyləyim versə bana cənnəti Mövla, sənsiz.

Bana rövşən olur ənvari-cəmalinlə cəhan,
Yoxsa zindan görünür çeşmimə dünya sənsiz.

Çarə nə, zəbt edəməz könlümü zənciri-cünun,
Neyləyim bu dili-divanəyi, cana, sənsiz.

Hiç cəm'iyyət əhbabi, Şərəf, istərmi,
Künci-firqətdə qan ağlar təkü tənha sənsiz.

* * *

Mətləbi-könlüm məğər hiç bir zəman olmaz imiş,
Aşiqi-işkəstəxatir kamran olmaz imiş.

Aləmi-heyrətdə asudənişin üşşaq içün,
Arizuyi-hurü qılmani-cinan olmaz imiş.

Can fəda etməkdi yarə əhdin, ey dil, qıl vəfa,
Məzhəbi-əhli-məhəbbətdə yalan olmaz imiş.

Vəsli-yari nafilə etməm təmənni anladım,
Gündə bin eyd olsa könlüm şadman olmaz imiş.

Kəsdim ümmidi, Şərəf, üşşaqi-zarə bir nəfəs,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Möhnəti-əğyardən cayi-əman olmaz imiş.

* * *

Bir ləhzə bən etməm o fədakari fəramuş,
Bilməm o nasıl etdi bu qəmxari fəramuş.

Bən söyləməyim, eylə sən Allah için insaf,
Hiç eylədigin varmıdır əğyari fəramuş?

Yadə uyub üşşaqi-diləfkari unutdun,
Etmə bana etdiklərini, bari, fəramuş.

Bərdar edəyim zülfi-dilavizinə könlüm,
Eylərsə bu hicranü bu azari fəramuş.

Hiç cövr ilə bülbül güli dildən cıqararmı?
Qabilmi, Şərəf eyləyə dildari fəramuş?

* * *

Yarsız bildim kişi bir ləhzə şad olmaz imiş,
Seyri-bağü dağ ilə könli güşad olmaz imiş.

Ülfəti-əhbabü zövqi-mahtab ilə məgər,
Aşiqi-biçarə məsrurül-fuad olmaz imiş.

Saldı girdabi-fəraqə kəştiyi-ümmidimi,
Ruzigari-ruzgarə e'timad olmaz imiş.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çarə nə əhli-məhəbbət sayeyi-dildardə,
İstifadə aşina hicranə yad olmaz imiş.

Hər könüldə var imiş bir üqdə əlbəttə, Şərəf,
Kimsə şərtincə fələkdə bərmurad olmaz imiş.

* * *

Yarsız könlüm acılmaz, tutalım, id olmuş,
Şəbi-firqətdə görülməz nicə xurşid olmuş.

Çəkilürmi səri-küyindən, əfəndim, bir dəm,
Bir də bin kərrə dili-zarimə tə'kid olmuş.

Yapdı yıxmaq içün əlbət, bu zəmini canan,
Yeni başdan yenə dil xanəsi təcdid olmuş.

Nə bilür sidqü məhəbbət nədir əğyar, o şux,
Bəgənür istər isə aşiqə təqlid olmuş.

Yar birəhmü vəfa, bəxtü fələk nabərca,
Hər birindən Şərəfi-dilşüdə növmid olmuş.

* * *

Sütuni-şö`leyi-ahi könül çərxə dayandırmış,
Fəğanü naləsiylə neyləyim yarı usandırmış.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nə hikmətdir bu gün kuhsari-qəmdə cümlə üşşaqə,
Dili-möhnətkeşim, gəh Qeysü gəh Fərhadı andırmış.

Tutuşdı daməni-səbrü şəkibim nari-qeyrətlə,
Yenə zalim rəqibi şərbəti-vəhdətlə qandırmış.

Olurkən sidqü ixlasi-dərunim məh kibi rövşən,
Nifaq etmiş ədulər aqibət yari inandırmış.

Nə cür'ətlə edərsən nəzmi-Baqiyi, Şərəf, tənzir,
Necə kərrə səni təb'in bu vadidə utandırmış.

* * *

Layiqiylə necə mümkin ola  cananə vida,
Təni-bimarım edər çün o zəman canə vida.

Səmti-yari buraxub övdət edərkən naçar,
Gördüm ayrılmadı, etdim dili-nalanə vida.

Yaxdı, billah, bəni nari-həsəd pərvanə,
Cani-diliylə edicək şəm'i-şəbistanə vida!

Başqa bir aləm imiş ayrılıq əyyami məgər,
Anladım eylər ikən yarə bu divanə vida.

Hər rəgi-canım edər haləti-nəz'i ima,
Nə dəm etsəm, Şərəf, ol sərvi-xuramanə vida.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Versə xubanə nola, aşiqi-biçarə şərəf,
Əndəlib ilə gəlür hər gülü gülzarə şərəf.

Yad edərsəm nə əcəb lə'li-ləbi-canani,
Ləfzi-rəngin verür sürəti-göftarə şərəf.

Əqlü fikrim kibi bin sövqlə getdi çoxdan,
Xaki-dərgahinə yüz sürmək içün yarə şərəf.

İltifatə bilürəm həddimi layiq degiləm,
Versin azari yetər bu dili-qəmxarə şərəf.

Bəzmi-əğyardə derlərsə inanmam, yari,
Girəməz çunki könül xaneyi-idbarə şərəf.

Dili-şairdə məhəbbətdən əsər olmaz isə,
Verəməz söyləsə də bən kibi, əs'arə şərəf.

Şərəfi bəlki bu təqrib ilə yad eylər o şux,
Məxləsim qafiyə olsun bu növ asarə şərəf.

* * *

Çərxi yıxmazsa əgər ahi-firavanimə yuf*,
Yarə etməzsə əsər naləvü əfğanimə yuf.

---

* *Təəssüf mənasında işlənir.*



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Səri-rahində nisar etməz isə cananın,
Kəsrəti-cuşişi-çeşmani-dürəfşanimə yuf.

Bilməm icrayi-məhəbbət edəməm əhdə vəfa,
Də'viyi-eşqdə bu hüccətü bürhanimə yuf.

Məhrəmi-bəzmi-vüsal olmadan ölürsəm əgər,
Yuf keçən ömrümə, övqatimə, əzmanimə yuf.

Rahi-dildarə fəda etməz isəm cani, Şərəf,
Saxta daratimə yuf, nafilə ünvanimə yuf.

* * *

Laf edüb bihudə eylərsəm əgər də'vayi-eşq,
Olayım ta ruzi-məhşər aləmə rüsvayi-eşq.

Yetdi vəqti-hökmi-Məcnun, sovdı Fərhad növbətin,
Yalnız şimdi bənəm zinətdəhi-səhrayi-eşq.

Yadinə almaz vəfa kibi nə hikmət namimi,
Eyləyən böylə bəni şuridəvü şeydayi-eşq.

Bən degil, nicə Fülatunun tağıtdı əqlini,
Cuşişi-seyli-məhəbbət, kəsrəti-sövdayi-eşq.

Hər dilə sanma, Şərəf eylər nigahi-iltifat,
Qafi-istiğnadədir ta laneyi-ənqayi-eşq.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Candan keçərdi, keçmədi əyyami-iştiyaq,
Bilməz imiş nəticəvü əncami-iştiyaq.

Bürci-ümidə toğmadi xurşidi-tale'im,
Sübhi-vüsalə irmədi axşami-iştiyaq.

Göftarə yox məcal, edəməm yarə ərzi-hal,
Bilsün, həlakimə edər iqdami-iştiyaq.

Yerə düşürdi, yıxdı necə pəhləvanları,
Meydani-dildə həmleyi-Bəhrami-iştiyaq.

Məstəm fəraqi-yar ilə, mey sunma, saqiya,
Gəlməz səfa dərunimə həngami-iştiyaq.

Vəqti-nişat gönlə gəlür möhnəti-digər,
Oldum o rütbə yə's ilə nakami-iştiyaq.

Keçmiş cəhandən, özgə bir aləmdədir qərib,
Etmiş, Şərəf, səni yenə sərsami-iştiyaq.

* * *

Ətrafım aldı dərdi-qəm, oldum yenə heyrani-eşq,
Ey şux, Leylasən, bənəm Məcnuni-sərgərdani-eşq.

Uydum könül də'vasinə, baxmam elin qovğasinə,
Quruldı dil səhrasinə ruzi-əzəl divani-eşq.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Aqilləri şeyda edər, gəh pəstü gəh bala edər,
Hər hökmini icra edər, sultani-alişani-eşq.

Getdiysə Qeysü Kuhkən, asudəmi çərxi-kühən,
Ta həşrədək üşşaqdən, qalmaz təhi meydani-eşq.

Dil mülkini viran edən, gahicə abadan edən,
Hər halimi seyran edən, məhbubeyi-canani-eşq.
Cövr etsə, rahət eylərəm, sanma fərağət eylərəm,
Əlbət itaət eylərəm, nəysə Şərəf, fərmani-eşq.

* * *

Ləhzə aramə iqtidarım yoq,
Çarə nə, yarsız qərarım yoq.

Bana naləm yetər həzin-həzin,
Ötmə bülbül, yanımda yarım yoq.

Yar ilə yad edüb keçən vəqti,
Ağlaram, əldə ixtiyarım yoq.

Bəni bu həsrət öldürərsə gəlüb,
Dermi bir aşiqi-nizarım yoq.

Həp, Şərəf, bitdi səbrü samanım,
Ahdən qeyri şimdi karım yoq.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Etmiş bəni eşq aləmə rüsva, xəbərim yoq,
Tağıtmış olan əqlimi sövda, xəbərim yoq.

Əsrari-dili-zarimi məktum sanırdım,
Eylər imiş ahim məgər ifşa, xəbərim yoq.

Hər cövrə rizadadə ol, adabi-məhəbbət,
Etmək imiş əğyarə müdara, xəbərim yoq.

Göndərmiş imiş qasidi-əfğanımi yarə,
Qaldı o da könlüm kibi hala, xəbərim yoq.

Çoxdan, Şərəfa, gəlmədi canan ilə zənnim,
Canım belə getmiş bənim əmma, xəbərim yoq.

* * *

Rəngi-rüxsarini güllərdə qodi cilveyi-eşq,
Bülbüli xari-cəfalərdə qodi cilveyi-eşq.

Qəlbi-saf ayinəvəş cəlbi-məhasin eylər,
Nəqşi-hüsni dili-kəmtərdə qodi cilveyi-eşq.

Qəmküsarindən edən dur, qəzadır ancaq,
Dili dilbərdə, bəni dərdə qodi cilveyi-eşq.

Nuş edən buldı həyati-əbədi könlümdə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nəş’eyi-lə’lini sağərdə qodi cilveyi-eşq.

Şərəfa, həmd ola kim, bəndeyi-Mövlanayız,
Dağını sineyi-çakərdə godi cilveyi-eşq.

* * *

Eyləməzdim bu qədər kimsəyə izhari-fəraq,
Bükdi qəddi-əməlim neyləyəyim bari-fəraq.

Yoxdur indimdə xəzan ilə baharın fərqi,
Həp bu bağ içrə bitərmiş məgər əşcari-fəraq.

İşlər, əlbəttə cigərgahimə axir bilirəm,
Böylə qalursa əgər xəncəri-azari-fəraq.

Bana göstərdi sitarəm, dilərəm Həqq, sənəma,
Sana göstərməyə bu vəchilə asari-fəraq.

Bəlkə eylər Şərəf, əhvalimə vaqif yari,
Namını bu qəzəlin eylədim əsrari-fəraq.

* * *

Çarə yox təxlisə, olsa dildə madərzadi-eşq,
Könlüm olmaqdır məhal anın içün azadi-eşq.

Savdı Məcnun növbətin, keçdi zəmani-Kuhkən.
Şimdi aləmdə bənəm həm Qeysü həm Fərhadi-eşq.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Səbrü samanım hücumi-qəmdən eyldərdi fərar,
Hisni-qəlbə etməsə hər dəm əgər imdadi-eşq.

Sən xərab etdikcə səngi-cövr ilə, cana, tənim,
Xatirim eylər yeni başdan bənim abadi-eşq.

Əfv edər olsan, Şərəf, peyrov ləbibi-pürhünər,
Cuş edər əhli-dil əlbət, qanda olsa yadi-eşq.

* * *

Yoxmıdır fərqi əcəb, aşiq ilə əğyarın,
Hiç tutarmı yerini xar, həzari-zarın.

Səmti-yarə gedəli, xeyli zəman oldı əcəb,
Bir bilən yox, necədir hali-dili-naçarın?

İltifatın ilə qeyriləri məmnun eylə,
Raziyəm, gər bana məxsus isə azarın.

Düşməz üşşaqi-sitəmdidəyə ahü fəryad,
Toxunur xatirinə bəlkə cənabi-yarın.

Səndən, ey badi-səba, bəndəsən, eylərmi sual,
Xaki-dərgahinə düşdikcə yolun dildarın.

Sözdə tə'sir gərək, yoxsa nədir şairlik,
Qəlbi-cananəyi nərm etməz isə göftarın.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sağlığında kişinin qədri bilinməz, Şərəfa,
Gəzər əldən-ələ bir gün ola kim asarın.

* * *

Laləvəş xun etdi bağrım, daği-hicranın sənin,
Bumıdır üşşaqə, zalim, lütfü ehsanın sənin.

Bivəfa, bir gün acırsan da, ararsan bəndəni,
Öldürər, billah, bu cövri-firavanın sənin.

Yar ilə zövq etməgi sanma, rəqiba, mə'rifət,
İmtəhan ol, gəl bənimlə, var isə canın sənin.

Bülbüli bir sənmisən, ol gülnihali-işvənin,
Girməz, ey dil, guşinə bu ahü əfqanın sənin.

Hiç düşirməzdin bu övzayi, Şərəf, cananinə,
Anladınmı, zərrə yoxmış fəhmü ürfanın sənin.

* * *

Düşdikcə mehri-vəchi-pürənvarə kakilin,
Gün göstərərmi bəxti-siyəhkarə kakilin?

Başdan həzar aşiqi-əvvarələr çıxar,
Təhrik edərsə şanə, əgər qarə kakilin.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Xiclətdə qoydi sünbülü şəbbuləri səba,
Nəşr eylədikcə buyini gülzarə kakilin.

Şanəylə çak-çak olub tel qırarmı hiç,
Düşdiysə bəndinə dili-sədparə kakilin.

Təhriki-badi olmasa, ahi-Şərəf yenə,
Gün göstərərmi bəxti-siyəhkarə kakilin?

* * *

Mahiri-sahirandır çeşmin,
Kafəri-biəmandır çeşmin.

Gündə bin qan edər yenə baxsan,
Xəsteyi-natəvandır çeşmin.

Aləmi qırsa sərtəsər qəmzən,
Yenə andan yəmandır çeşmin.

Etmə bihudə şəfqət ilə nəzər,
Bildigim mehribandır çeşmin.

Canü dil hiç görərmi rahi-nicat,
Aşiqə xəsmi-candır çeşmin.

Şərəfi xuni-əşkə qərq etdi,
Sevdigim çox zəmandır çeşmin.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Var sual, et cənabi-Leyladən,
Nə bəlayi-nihandır çeşmin.

* * *

Maliki-mülki-candır qəmzən,
Bir şəhi-kamrandır qəmzən.

Dildə zəxm açılur xəyal etsəm,
Nə bəlayi-nihandır qəmzən.

Tiri həp canə işlər, ey qaşi yay,
Biəman pəhləvandır qəmzən.

Şərəfi bir nigəhlə etdi xərab,
Zahira mehribandır qəmzən.

Söylədi həzrəti-fəridi-cəhan,
Dillərə dastandır qəmzən.

* * *

İşlər cigərdə yarəsi əhli-məhəbbətin,
Yoxdur əlacü çarəsi əhli-məhəbbətin.

Həp yoxladım səbahədək, əncümşümar olub,
Yoxmuş məgər sitarəsi əhli-məhəbbətin.

Bir ləhzə güldürürsə, əqibində ağladır,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tə’siri-bəxti-qarəsi əhli-məhəbbətin.

Bin parə etsə, cövr ilədir yenə yar-yar,
Qəbrində cümlə yarəsi, əhli-məhəbbətin.

Yaxar, kül eylər aləmi, ey çərx, əlhəzər,
Bir ahının şərarəsi əhli-məhəbbətin.

Loğmanə minnət etmə, Şərəf, xəstə dil içün,
Yoxdur əlacü çarəsi əhli-məhəbbətin.

* * *

Hər dəm dilərəm həzrətinə olmağa vasil,
Ya Rəbbi, muradım necə bir olmaya hasil.

Hər bərgi-giyah adəmə der hali-dil ilə,
Qafil, nə turursan, əcəb ömrün qəti acil.

Həm əşrəfi-məxluq ola, həm kişi cəhanə,
Adəm gələ, heyvan gedə, əql olami qail.

Tək başinə bulseydi dəlilsizcə təriqin,
Olurdı gəda sə’y ilə şəh bəzminə daxil.

Yoxdan bəni var eylədigin kibi, İlahi,
Xəlq et, düşəyim babinə bir mürşidi-kamil.

Çəksün bəni, dutsun əlimi rahi-nicatə,
İmdad ilə, irşadə ilə bir rəhbəri-fazil.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Fəryadi qo, Münla kibi xunkar qapusundan,
Haşa, Şərəf ehsan uma da, boş gedə sail.

* * *

Mübtəlayi-firqətin şayani-ehsan oldı, gəl,
Çarəsazım, xəstə dil möhtaci-dərman oldı, gəl.

Qarə bəxtim eylədi əncümşümari-intizar,
Sənsiz, ey mehru, cəhan manəndi-zindan oldı, gəl.

Sanma əski macəra şimdi fəraqinlə sənin,
Əşki-çeşmimdən bənim, təcdidi-tufan oldı, gəl.

Xaki-payindən səlam olsun, gətür badi-səba,
Nicə dəmlərdür könül məhcuri-canan oldı, gəl.

Hasidan məmnun, könül məhzun, cigər pürxundür,
Bu Şərəf bin dərd içində qaldı, heyran oldı, gəl.

* * *

Nə qədr tulü diraz olsa da əyyami-vüsal,
Tez keçər aləmi-mə’na kibi həngami-vüsal.

Həşrədək canda qalur zövqi, der idim baqi,
Olmasa firqət əgər aqibət əncami-vüsal.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Zəhr edər ləzzəti-didari dilə bimi-fəraq,
Varmıdır bənciləyin aşiqi-nakami-vüsal.

Edəməz saimi-hicran ölincə iftar,
Məgər ərz edə cəmalın məhi-bayrami-vüsal.

Şərəf, aramü təhəmmül gedər istiqbalə,
Guşi-canə irəcək müjdeyi-peyğami-vüsal.

* * *

Laübali aşiqi-cananə kim, könlümdür ol,
Başü canın həp qomuş meydanə kim, könlümdür ol.

Qafi-istiğna olursa nola cavü məskənim,
Mürği-ənqayi-xəyalə lanə kim, könlümdür ol.

Badeyi-eşqi məgər bəzmi-əzəl nuş eyləmiş,
Hiç ayılmaz ruzü şəb məstanə kim, könlümdür ol.

Həlqeyi-zülfə taxub kəndi əliylə gərdənin,
Yerdə zəncirin sürər divanə kim, könlümdür ol.

Yadinə almaz səfayi, zövqə cıxmaz aşina,
Dərdü qəmdən qeyriyə biganə kim, könlümdür ol.

Əhli-eşqə eyləmək bir işmidir məhvi-vücud,
Şəm'i-hüsnə can atan pərvanə kim, könlümdür ol.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sixi-qəmdə nari-həsrətlə dutar həmçün kəbab,
Sızlanan, ey şux, yanə-yanə kim, könlümdür ol.

Olmasun qəlbi-Şərəf viran, yıxma, ey pəri,
Zatinə məxsus olan kaşanə kim, könlümdür ol.

* * *

Layiqi-cövrü cəfasən, səni ol şah könül,
Öldürərsə, deməyim acıyub, eyvah könül.

Bəni də sənsən edən möhnətü ənduhə düçar,
Acımam, hər nə çəkərsən sana, billah, könül.

Yadü biganə olub, ya ki qul oldun qeyrə,
İçəyim, bari, sənin qanını hərgah könül.

Pənd edərdim sana hərcayi gözəl sevmə, deyü,
Çünki guş eyləmədin olma mədədxahi-könül.

Həm bana, həm Şərəfə qıydın, əlindən fəryad,
Həşrədək bən də derəm, ah könül, ah könül.

* * *

Bir gün aram edəməm sənsiz, əfəndim, tez gəl!
Bilmiş ol kim, qıyaram canıma kəndim, tez gəl!

Bir gün əlbəttə ararsan, buna aləm derlər,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nəqdi-səbrim kibi, billah, tükəndim, tez gəl!

Yalnızca buraxub dərdi-fəraqinlə bəni,
Getdin əmma, kərəm et, zülfi-kəməndim, tez gəl!

Bəni həsrətlə həlak etmə, əlində öldür,
Gedəyim bir dəxi, ey sərvi-büləndim, tez gəl!

Hiç rəhm etməz isən də Şərəfə, bari, həman,
Sevdigin başı içün işvəpəsəndəm, tez gəl!

* * *

Yardən dur olub alamə düçar oldı könül,
Ləbi-canbəxşin alub zarü nizar oldı könül.

Bin bəla ilə nə çarə səni, ey afəti-can,
Bəzmi-əğyarə bıraxdı, bana yar oldı könül.

Xatirə gəldimi bir kərrə dəmi-zövqü səfa,
Yad edüb vəslini bisəbrü qərar oldı könül.

Qalə gəlməz necə tə'rif edəyim əhvalın,
Bildiyimdən də betər sinəfikar oldı könül.

Nola keçməzsə, Şərəf, səmti-vəfadən ol şux,
Hicrinə, möhnətü ənduhinə yar oldı könül.

* * *



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Razi-eşqə aşina bir nay, bir bən, bir könül,
Vaqifi-hər macəra, bir nay, bir bən, bir könül.

Başda sevda, dildə qəm, sinəysə pürdaği-ələm,
Sərtəsər hikmətnüma bir nay, bir bən, bir könül.

Dərdin anmazdı, göreydi Vamiqü Fərhadü Qeys,
Cümləyə heyrətfəza bir nay, bir bən, bir könül.

Möhnətü alamü ənduhi-sipehri-dun ilə,
Əhli-dərdə pişva bir nay, bir bən, bir könül.

Hər nəfəs, hər an, hər dəm cövrü qəhrü hicrilə,
Zar edən şəb ta səba bir nay, bir bən, bir könül.

Nazdən güllər qalurdi, nalədən bülbül əgər,
Suz ilə qılsaq nəva bir nay, bir bən, bir könül.

Oldı Mövlananın asari-kəmaliylə Şərəf,
Razi-eşqə aşina bir nay, bir bən, bir könül.

* * *

Qomadın halimə çünki bəni hər gah, könül,
Səni rüsva edəyim xəlqə ol agah, könül.

Bana biganə olub, ellərə oldun məhrəm,
Buna razimi olur həzrəti-Allah, könül.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Təkü tənha edərəm vadiyi-möhnətdə güzar,
Olmadın, getdi bana həmdəmü həmrah, könül.

Həzər et, başini bir dərdə düçar etmə dedim,
Pəndimi dinləmədin aqibət, eyvah, könül.
Gah hicrü gəhi azar, Şərəf, hər nə isə,
Bən təhəmmül edərəm, ah könül, ah könül.

* * *

Alınca nəş'eyi-lə'lin xəyalə didələrim,
Şərabi-əşk ilə doldi piyalə didələrim,

Düşürdi gözdən o xuni, bəni misali-sirişk,
Tökərsə qan, baxılmaz bu halə didələrim.

Üzari-paki nəzərdə qərar etdikcə,
Müjəmlə göstəriyor şəkli-lalə didələrim.

O rütbə qan büridi piçü tabi-heyrətdən,
Baxarmı bir dəxi mehri-cəmalə didələrim.

Təri olarsa əcəbmi, Şərəf, o virdi-cəmal,
Dökərdi qan yerinə şimdi jalə didələim.

Bu mülki-nəzmə əcəb şəhmidir, Həlim Gəray
Ki, gözləyür yolını ərzi-halə didələrim.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Dilə hazır pərişanlıq əgər cəm'iyyət istərsəm,
Bana lütf etməsün bir dəm fələkdən himmət istərsəm.

Kəbabi mürği-dil, mey əşki-çeşmim,bəzmi-qəm mövcud,
Nola bən də bu işrətgəhdə kəsbi-fürsət istərsəm.

Cilayi-dideyi-canü dilimdir xaki-dərgahın,
Nola badi-səbadən tutiya, ey afət, istərsəm.

Fəğanü nalədən qeyri bana şəb ta səhər sənsiz,
Həram olsun əgər bir ləhzə xabü rahət istərsəm.

Şərəf, həddin degil tənzir etmək nəzmi-ustadi,
Bu surətlə əcəbmi, ərzi-halə fürsət istərsəm.

* * *

Etməz sana hiç ahım əsər, bəxti-siyahım,
Qəlbin əcəb olmuşmı həcər, bəxti-siyahım.

Dalmış o qədər xabə, əgər böylə qalırsa,
Bidar ola məhşərdə məgər, bəxti-siyahım.

Bu yüzdən əgər şad olayım der isə könlüm,
Gör himməti, ol an bitər bəxti-siyahım.

Biz qeyri səninlə gedəriz böylə gedərsə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ta məhkəmeyi-həşrə qədər bəxti-siyahım.

* * *

Nizayi-zülf əbəs qeylü qal imiş bildim,
Vüsali-aşiqə xabü xəyal imiş bildim.

Əgərçi çarə bulunmaz iadeyi-ömrə,
Güzəştə dəmlərə irmək məhal imiş bildim.

Qəmiylə can atar sübhə bir məhin hər şəb,
Fələk də bənciləyin biməcal imiş bildim.

Olub dəqayiqi-fənni-cününinə vaqif,
Cəhan bu ərsədə Məcnunmisal imiş bildim.

Kədərlə xarici-tövqi-bəşər ki, pəncələşür,
Bu pənc beyt, Şərəf, həsbi-hal imiş, bildim.

* * *

Dildəki daği-füruzanım ilə əglənürəm,
Gecələr kəndi çirağanım ilə əglənürəm.

Edirəm zivəri-ağuşi-xəyalım yari,
Daima xidməti-mehmanım ilə əglnürəm.

Söylədüb çəkdigini şuxi-cəfakarindən,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Sərgüzəşti-dili-nalanım ilə əglənürəm.

Qomaz avarəvü tənha bəni manəndi-səfa,
Yenə dərdü qəmi-cananım ilə əglənürəm.

Dəsti-ahım toxunub sazi-dərunin telinə,
Nəğmeyi-naləvü əfğanım ilə əglənürəm.

Keçirüb hər birini tari-nigahi-qəlbə,
Töhfeyi-çeşmi-dürəfşanım ilə əglənürəm.

Söyləyüb sərdiyi-möhnətlə necə tazə qəzəl,
Şərəf, əş’ari-pərişanım ilə əglənürəm.

* * *

Dudi-ahim ru bərahi-tağï-gərdun eylədim,
Daneyi-simi-sirişkim nəqdi-Qarun eylədim.

Ərsəgahi-eşqi xali sanmasun Fərhadü Qeys,
Gün Fülatuni o vadilərdə məcnun eylədim.
Sərbəsər daği-dərunim gülşənə ərz eyləyüb,
Laləyi-şəmşiri-rəşk ilə cigərxun eylədim.

Nəş’əbəxşi-məclisi-şahənşəhi-qəm olmağa,
Naleyi-peydərpeyəm, həmşəkli-qanun eylədim.

Yar dermiş töhfeyi-cövri-firavanım ilə,
Bən Şərəfasa həzaran zarı məmnun eylədim.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Taraci-giranqədri-təvanımsan, əfəndim,
Sən rəxnədəhi-ömri-giranımsan, əfəndim.

Qıl kişvəri-sinəmdə mədəd hökmini icra,
Şahənşəhi-təxti-dilü canımsan, əfəndim.

Həm mərhəmi-lütfinlə edərsən bana timar,
Həm baisi-hər daği-nihanımsan, əfəndim.

Etsəm nə əcəb, miveyi-məqsudimi mətlub,
Gülzari-ümidimdə fidanımsan, əfəndim.

Vəsfi-ləbi-lə'lin Şərəfin nəzmi-təridir,
Sən zibü fəri-lövhi-zəbanımsan, əfəndim.

* * *

Yarə aldanma, rəqiba, nə sənindir, nə bənim,
Öylə hərcayi dilara nə sənindir, nə bənim.

Etmə viran o qədr cövr ilə beyti-Həqqi,
Verdim əmma dili, cana, nə sənindir, nə bənim.

Cəm kibi kor gedəriz, mən'i qo, vaiz, biz də,
Məclisü saqivü səhba nə sənindir, nə bənim.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əşki-ahımdır edən eşqimi ifşa bilirəm,
Bunda suç, ey dili-şeyda, nə sənindir, nə bənim.

Sürdigin dəm qalur aləmdə, Şərəf, zövq edəlim,
Ariyətdir bizə dünya, nə sənindir, nə bənim.

* * *

Can fəda bəndənəm, əmma sana layiq degiləm,
Bilürəm məşrəbi-pakinə müvafiq degiləm.

Keçəməzlər bəni meydani-məhəbbətdə yenə,
Nədən indində rəqibanimə faiq degiləm.

Sadiqəm, Həq də bilür eşqimi səndən qeyri,
Bir şəhə bəndəvü bir kimsəyə aşiq degiləm.

Rastguyəm, sözi bir söylərəm, etməm inkar,
Həmdilillah ki, ikiyüzlü münafiq degiləm.

Qədrü həddim bilürəm bən də Şərəfi-zar kibi,
Can fəda bəndənəm, əmma sana layiq degiləm.

* * *

Lütf et, əfv eylə bənim səhvü günah eylədigim,
Cürm imiş, bilməz idim sanə nigah eylədiğim.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu qədr suzü güdazım görüb etməzsən dad,
Sandın əfsanə məgər naləvü ah eylədigim?
Yıxdı zülm ilə yeni başdən iç el qəl`əsini,
Təxtgahi-dili-viranəmə şah eylədigim.

Bilmədən getdi nə çarə bənim eyvah, eyvah,
Sənin eşqinlə dilü canı təbah eylədigim.

Həvəsi-busi-qüduminlədir, ey sərvi-rəvan,
Şərəfi böylə qübari-səri-rah eylədigim.

* * *

Ləbi-lə'li-şəkərbarın görüb biixtiyar oldum,
Kəməndi-zülfinə yarın giriftarü şikar oldum.

Bən eşqindən rəha bilməm, cəfadən iştika bilməm,
Nədir zövqü səfa bilməm, qəminlə yari-ğar oldum.

Buyur, ey şuxi-müstəsna, çəmənzari-dilə tənha,
Misali-lalə sər ta pa səninçün dağdar oldum.

Nolur ol virdi-xəndanım, əcəb guş etsə əfğanım,
Səri-kuyində nalanam, necə dəmdir həzar oldum.

Yaparsan qəlbi-əğyari, yıxarsan xatiri-zari,
Acırsın bəlkə gör, bari, yolında xaksar oldum.

Həbibim qiymətim bilməz, təbibim illətim bilməz,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Könül bitaqətim bilməz, həman zarü nizar oldum.

Bəni zənn etmə məsrurəm, dəri-canandən durəm,
Edərsəm nalə mə`zurəm, düçari-intizar oldum.

Fələk ahi-həzinimdən, saqın kəndin əninimdən,
Ayırdın nazəninimdən, yenə pək biqərar oldum.
Hücumi-möhnətü firqət, Şərəf, verdi bana heyrət,
Əcəb bilməzmi ol afət, nə rütbə dilfikar oldum.

* * *

Ləzzəti-zəhri-fəraqın ilə naçar oluram,
Qəmi-həsrət ilə candan belə bizar oluram.

Kəsrəti-dərdü məhəbbət qomadı tabü təvan,
Gah dil banə, gəhi bən könülə bar oluram.

Bəni əğyar ilə bir tutma ki, çoxdur fərqim,
İltifat etməz isən, cövrə tələbkar oluram.

Yad edüb vəslini ta sübh, şəbi-firqətdə,
Tağıdub xabımi, aramımi bidar oluram.

Acımazsan da deməzmisən, əcəb biçarə,
İştiyaqimlə ölür, qatilü xunxar oluram.

Bilməzəm qeyri, sana aşiqəm aləmdə bəni,
Sanma, kəndin kibi hər gördigimə yar oluram.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Dəmi-vüslətdə gözümdən saqınub rüxsarın,
Gah olur kəndimə kəndim dəxi əğyar oluram.

Hər keçən vəqti səninlə, Şərəfə andıqca,
Axıdub gözlərimin yaşını ənhar oluram.

* * *

Mahə baxdım, arizi-dildarı andım, ağladım,
Mehri gördüm, pərtövi-ruxsarı andım, ağladım.

Arizuyi-vəslilə oldum yenə əncümşümar,
Ta səbah olunca bu şəb yari andım, ağladım.

Xeyr ola cananə duşdə düşdi fürsət dün gecə,
Çəkdigim alami, zari-zari andım, ağladım.

Rövnəqi-bəzmimkən oldı yar, qeyrin həmdəmi,
Ol dəmi bu vəqti-qəmasari andım, ağladım.

Bülbülin zarın, gülin xarın təxəyyül eyləyüb,
Gəh dili, gəh yari, gəh əğyari andım, ağladım.

Kəşfi-raz etdim bu gecə şəm` ilə  pərvanəyə,
Macərayi-eşqi-atəşbari andım, ağladım.

Şimdi etməz rəğbət əmma, oxuyub nəzmin o şux,
Bir gün əlbət der: Şərəf naçarı andım, ağladım.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Yıxıldı yəʾs ilə məʾmur gördigin könlüm,
Qəti mükəddər o məsrur gördigin könlüm.

Yıxıldı məclisi-heyrətdə, məst olub qaldı,
Meyi-vüsal ilə məxmur gördigin könlüm.

Çü xarü xəs əyaq altında paymal oldı,
Vəqari-eşq ilə məğrur gördigin könlüm.

Nə eylər ərzi-məhəbbət, nə dəʾviyi-şirkət,
Qanı o sərkeşi-pürzur gördigin könlüm.

Düşüb sitarəsi məʾzuli-iltifat oldı,
Diyari-ülfətə məʼmur gördigin könlüm.
Yapılmaz, etmə, Şərəf, nəqdi-himməti israf,
Yıxıldı yəʾs ilə məʾmur gördigin könlüm.

* * *

Bir an təhəmmül eyləyəməm yarı görməsəm,
Yarsız cəhani neyləyəyim yarı görməsəm.

Bin arizuyla əzm edəcək asitaninə,
Yanında ah, o məhvəşin əğyarı görməsəm.

Yoxdur behiştü duzəxin indimdə fərqi heç,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Zəhri-fəraqü ləzzəti-didarı görməsəm.

Bari-qəmi-rəqibə nə mümkindi taqət, ah,
Bülbüldə zarı, güldə əgər xarı görməsəm.

Hər gecə xabı eylər idim çeşmimə həram,
Duşdə Şərəf, o şuxi-cəfakarı görməsəm.

* * *

Ağlamazdım dərdi-əğyar ilə dilgir olmasam,
Şərh edərəm bəlkə halım, yarə təkdir olmasam.

Zəxmdari-niştəri-hicrəm, təbiba, nafilə,
İnləməm şəbtasəhər, möhtaci-tədbir olmasam.

Yarə, ölsəm dəxi etməz idim izhari-məlal,
Göricək vəchi-rəqibi, ah, təğyir olmasam.

İrməz əqli yarə zülm isnad edər divanə dil,
Bağlamazdı zülfinə şayani-zəncir olmasam.

Vəz'i-əğyarə təhəmmül gücmi, asanmı, Şərəf,
Şərh edərdim bəlkə yarə, ah təkdir olmasam.

* * *

Lücceyi-qəmdə lal olub qaldım,
Mübtəlayi-məlal olub qaldım.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bəzminə yox ləyaqətim varəyim,
Naümidi-vüsal olub qaldım.

Bəstəri-möhnət üzrə inləyərək,
Xəsteyi-biməcal olub qaldım.

Yıxdı şəhri-vücudimi dövran,
Zə'filə bir xəyal olub qaldım.

Həmçü işkəstədil Şərəf, bən də,
Bari-firqətlə dal olub qaldım.

* * *

Nə dəm ki, sinədə daği-qəmin hesab edərəm,
Səninçün eylədigim ahdən hicab edərəm.

Əbəs yerə bana ərz etmə, mehrü mahı fələk,
Həvaleyi-nəzər etməkdən ictinab edərəm.

O rütbə surətü şəklimdən eylədim ikrah,
Düxani-ahimi ayineyi-niqab edərəm.

Pəsənd qüvvəti-bazumə Bisütuni-qəmi,
Bu zə'fi-cism ilə yek həmlədə xərab edərəm.

Könül, nədimi-şəhənşahi-eşq olalı, Şərəf,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nəvayi-nalələrim bəzminə rübab edərəm.

* * *

Qanı o dəm ki, məzhəri-təltifi-yar idim,
Qanı o dəm ki, məhrəmi-bəzmi-nigar idim.

Qanı o dəm ki, bəzmi-vüsalində ol gülün,
Cuşü xüruşi-əşk ilə guya həzar idim.

Qanı o dəm ki, şövq ilə pərvanəvəş müdam,
Şəm'i-cəmalinə gecələrdə yanar idim.

Qanı o dəm ki, məsti-meyi-iltifat olub,
Bu günləri nə yad edər, nə umar idim.

Qanı o dəm ki, necə zəman idi ah, ah,
Babında bir qəribi-sədaqətşüar idim.

Qanı o dəm ki, bilmədin eyvah qədrini,
Həm xaksar idim sana, həm cannisar idim.

Qanı o dəm ki, etdi fələk şimdi bərəks,
Busi-qüdumi-yar ilə sahibvəqar idim.

Qanı o dəm ki, məclisi-vüslətdə necə dəm,
Bən də rəqib sənciləyin kamkar idim.

Qanı o dəm ki, yekdil olub yar ilə Şərəf,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Asudeyi-qəmü sitəmi-ruzgar idim.

* * *

Yar etdi rəğbət, aqibət əğyarə, neyləiym,
Gül verdi yenə damənini xarə, neyləyim.

Ətrafın aldı halə kibi yad o məhvəşin,
Bən böylə bəxtü taleyi-qəddarə neyləyim.

Etməz qəbuli-mərhəm, onulmaz təbib yox,
Hicran oxuyla hasil olan yarə neyləyim.

Fəhm eylədim o şuxə hüzuri-rəqibdə,
Keçməz niyazi-aşiqi-biçarə, neyləyim.

Tə’ciz etmə yarı dedim, ərzi-hal ilə,
Tutmaz nəsihətim dili-avarə, neyləyim.

Heyrətdəyəm, Şərəf, bu qədr ahü vahımız,
Tə’sir etmədi o sitəmkarə, neyləyim.

* * *

Yad eyləyüb keçən dəmi ah eylər, ağlaram,
Bu hali-pürməlalə nigah eylər, aglaram.

Baxdıqca şumi-talevü nəhsi-sitarəmə,
Şəkvayi-çərxü bəxti-siyah eylər, ağlaram.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bir gunə arizuyi-məhal ilə nafilə,
Nəqdineyi-niyazi təbah eylər, ağlaram.

Pamali-naz edər deyü şayəd o səngdil,
Xaki-dərin məlazü pənah eylər, ağlaram.

Təkzib edərsə sidqimi qaziyi-eşq əgər,
Də’vamə əşkü ahi güvah eylər, ağlaram.
İstərsə, istəməzsə də yarın yolunda həp,
Əqlü şüurü ömri kütah eylər, ağlaram.

Şimdi kəmali-yə’s ilə hər ruzü şəb, Şərəf,
Yad eyləyüb keçən dəmi ah eylər, ağlaram.

* * *

Gözdən o mehri-işvə nihan oldı, neyləyim,
Toğmaz məhi-vüsal zəman oldı, neyləyim.

Sur etsə xəlq, şəxsi-mükəddər olurmı şad,
Yox eyd, tutalım rəməzan oldı, neyləyim.

Səm’i-qəbulə olmadı vasil rümuzi-eşq,
Bihudə yarə şərhü bəyan oldı, neyləyim.

Kar etmədi o şuxə, əbəs yerə nicə dəm,
İzhari-giryə ərzi-fəğan oldı, neyləyim.

Kətm etmək idi dərdi-dili adətim, Şərəf,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ahımla cümlə nasə əyan oldı, neyləyim.

* * *

Könlümdə yox sürur, gülistanı neyləyim,
Canımda var fütur, o seyranı neyləyim.

Dilxahım üzrə cameyi-məqsudimin, diriğ,
Dəsti-ümidə girmədi, damanı neyləyim.

Verməzsə nəbzinə görə şərbət nigarımın,
Boqratü Əristalisü Loğmanı neyləyim.

Bimar ikən vücudi-nəzakətnəmudi-yar,
Gəlsə qətar ilə bana, dərmanı neyləyim.

Ey şux, aqibət Şərəfi-xəstədil kibi,
Etməz isəm fəda sana, bu canı neyləyim.

* * *

Keçməyür ol gülə zarım, anamı acıyayım,
Oldı xamuş həzarım, anamı acıyayım.

Rahinə əqlü dilü səbri fəda etmiş ikən,
Bilməz ol tifl şüarım, anamı acıyayım.

Olsa Loğman dəxi izhar edər iczi-tədbir,
Böylə bir dərdə düçaram, anamı acıyayım.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Olalı rahinə məsruf nüqudi-əşkim,
Qalmadi mayəvü varım, anamı acıyayım.

Şərəfa, ol şəhin ardınca misali-sayə,
Getdi aramü qərarım, anamı acıyayım.

* * *

Ol şuxin əbruvani çəkilmiş kəman ikən,
Çəkməzmi dərdi-«ya Həqi» aşiq nişan ikən.

Pamali-əsbi-naz edər ol səngdil yenə,
Fəryadi-aşiqan əman, əl-əman ikən.

Eylərmiyəm ümidi-rəha dami-türrədən,
Çün qəsdi həbsi-mürği-dili-natəvan ikən.

Hüzni-fəraqi-güllə fəğan eyləmək əbəs,
Ey əndəlib, axəri-gülşən xəzan ikən.

Çıxsa sipehrə ahi-cigərsuzim işmidir,
Bu üstüxani-sinəm ana nərdiban ikən.

Bihudədəir Şərəf, o şəhə ərzi-macəra,
Razi-dərunə qəmzələri tərcüman ikən.

* * *



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nola, eylərsə könül fikrü xəyali-rəməzan,
Rəsmi-əbruyi-bütan oldı hilali-rəməzan.

Yeməz-içməz bir oruc naminə şuxə tutulub,
Nəyə müncər olacaq zə'filə hali-rəməzan.

Vardır ol mərtəbə əqraninə rüchani ki, yox
Hiç bir vəchilə, ey mah, misali-rəməzan.

Gündizi rəhməti-Bariylə edər seyr gecə,
Aləmə olmada məbzuli-nəvali-rəməzan.

Bozdu imsaki-fəraqi gəlüb iftari-vüsal,
Qədrü eyd oldı görüldikdə cəmali-rəməzan.

Kəsmə cudindən ümidin ki, dəmi-məhşərdə,
Şərəf, etməz səni məhrum xisali-rəməzan.

* * *

Seyr eylə, şəha, ahi-dilim baəsər olsun,
Dünyayı yaxar atəşə, ədna şərər olsun.

Xalü rüxü zülfü müjə, əbru həvəsiylə,
Əhvali-digərguni dilin, beşbətər olsun.

Lütf eylə, tağıtma, məded ey badi-səhərxiz,
Dillər içün ol zülfi-müənbərdə yer olsun.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Gördük əsər etməz gülə bu zari həzarın,
Ey bülbüli-şeyda, yetər olsun, yetər olsun.

Eşq əhlinə tə'sir edər isə səzadır,
Canana, Şərəf, bu qəzəlin novəsər olsun.

* * *

Səhni-dildə çəmənim sənsən, əfəndim, sənsən,
Sünbülü yasəmənim sənsən, əfəndim, sənsən.

Dili-möhnətzədəmiz qeyrə təmayülmi edər,
Dari-dünyadə bənim sənsən, əfəndim, sənsən.

Edəməm ətfi-nəzər Yusifi-sani olsa,
Dilbəri-dilşikənim sənsən, əfəndim, sənsən.

Nəğmeyi-nalələrim çıxsa hüseyniyə nola,
Yari-vəchi-həsənim sənsən, əfəndim, sənsən.

Tutiyi-təb'i-Şərəf olsa nola, nadirəgu,
Baisi-hər süxənim sənsən, əfəndim, sənsən.

* * *

Həmməclisi-nigar idim eyvah, bir zəman,
Biganeyi-xumar idim eyvah, bir zəman.

Gəh xalü gəh üzarını şəmm edüb ol gülün,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Könlümcə kamkar idim eyvah, bir zəman.

Şimdi ənisü həmdəmim oldı fəraqü qəm,
Şayani-vəsli-yar idim eyvah, bir zəman.

Gərm edüb eyşü işrəti ol gülüzar ilə,
Çeşmi-əduyə xar idim eyvah, bir zəman.

Mülki-cününə bən dəxi Məcnunvəş, Şərəf,
Əqlimcə şəhriyar idim eyvah, bir zəman.

* * *

Giysusin etsə yar kəmənd, istəməzmisən?
Zənciri-eşqə olmağı bənd, istəməzmisən?

Sərmənzili-ümmidə şitab eylə irməgə,
Meydani-arizudə şitab, istəməzmisən?

Ərz et, dila, sənayeyi-fənni-cününini,
Eylərsə ruhi-Qeys pəsənd, istəməzmisən?

Hər bir şərari-ahini ol afitabi-hüsn,
Etsə misali-mah bülənd, istəməzmisən?

Çoxdandır etmədin, Şərəfa, vəsfi-lə'li-yar,
Tutiyi-kilki-təb'inə qənd, istəməzmisən?

* * *



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yarə əhvali-dili ahü fəğanım söyləsin,
Hər şərari ahımın suzi-nihanım söyləsin.

Çəkdiyim möhnətləri ərz edəməm, cana, sana,
Bari, varsun, xamə olsun tərcümanım söyləsün.

Sərgüzəştim nərm edər əlbət, dəruni-qönçəyi,
Bağda bülbüllər, ey gül, dastanım söyləsün.

Ol qədr pünhandır əsrari-eşqin sinədə,
Vaqif olmuşmı sual eylər, zəbanım söyləsin.

Xəncəri-hicrin, Şərəf, dildə nə qanlar tökdigin,
Payi-yarə yüz sürüb, əşki-rəvanım söyləsün.

* * *

Dərdimi yarə bəyan eyləməyim əhd olsun,
Vaqifi-sirri-nihan eyləməyim əhd olsun.

Bəlkə tə'ciz edərəm yarı səri-rahində,
Bir dəxi ahü fəğan eyləməyim əhd olsun.

Bəni yad etməz imiş, bən dəxi şimdən sonra,
Namını virdi-zəban eyləməyim əhd olsun.

Çünki yox qiyməti indində o şuxun minbə'd,
Cövhəri-əşki ziyan eyləməyim əhd olsun.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yari əğyar ilə gördükcə, Şərəf, bir yerdə,
Atəşi-ahım əyan eyləməyim əhd olsun.

* * *

Tərəfi-yarə nigah eyləməyim əhd olsun,
Bir dəxi öylə günah eyləməyim əhd olsun.

Ömrüm olduqca o hərcayiməniş dildarın,
Qapusın cayi-pənah eyləməyim əhd olsun.

Ah ilə əşki, könül, məhkəmeyi-eşqində,
Də'viyi-sidqə güvah eyləməyim əhd olsun.

Suç bənim derdim o qəddarə, vəli bihudə,
Şəkveyi-bəxti-siyah eyləməyim əhd olsun.

İncidirmiş səri-rahində Şərəf cananın,
Bə'd əzin naləvü ah eyləməyim əhd olsun.

* * *

Bülbülə qarşu gülün həmbəzmi-xar olmaq nədən?
Bən tururkən sevdigim əğyarə yar olmaq nədən?

Çünki razisən, könül, yarın cəfavü cövrinə,
Ya bu dənlü ahü zarın bişümar olmaq nədən?



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bivəfaliq adəti-dirinəsidir dilbərin,
Leyk, ey zalim, bu rütbeyi-kinəxar olmaq nədən?

Dil əsiri-bəndi-həsrət, can giriftari-fəraq,
Şövqi-ruyinlə, rəqibim, kamkar olmaq nədən?

Fülki-məqsudi irişməz sahili-ümmidinə,
Aşiqi-biçarə xəsmi-ruzgar olmaq nədən?

Can kibi saxlar ikən əsrari-eşqi bir zəman,
Şimdi, ey dil, daği-sinən aşkar olmaq nədən?

Əsrimizdə bunca şair var ikən bilməm, Şərəf,
Gövhəri vadisinə bu e’tibar olmaq nədən?

* * *

Can vermədə yarə, könül, iqdam edəməzsən,
Gəl keç əməli-vəsldən, ibram edəməzsən.

Kəşf eyləmə naəhlə, saqın, haləti-eşqi,
Təmsil ilə, təşbih ilə ilzam edəməzsən.

Rə’na bilirəm, ey dili-divanə, o şuxun,
Bağlanmayacaq zülfinə, aram edəməzsən.

Dökməklə səri-rahinə sən daneyi-əşki,
Ol ahuyi-vəhşiyi, dilaram edəməzsən.

Şərh eyləmə, bihudədir əhvalimi yarə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bin böylə qəzəllə, Şərəf, ifham edəməzsən.

* * *

Lə’lrizi-nigəhim sənsən, əfəndim, sənsən,
Ruzü şəb mehrü məhim sənsən, əfəndim, sənsən.

Bən ölürsəm də sana həşrədək, ey ruhi-rəvan,
Der zəbani-giyəhim, sənsən, əfəndim, sənsən.

Yoxdur Allah bilür, kimsəyə meylü nəzərim,
Alma, cana, günəhim sənsən, əfəndim, sənsən.

Bəndənəm, dövləti-eşqində qul olmam qeyrə,
Dəhrdə padişəhim sənsən, əfəndim, sənsən.

Həmçü biçarə Şərəf, derlər ila yövmi-qiyam,
Dilü cani-təbəhim sənsən, əfəndim, sənsən.

* * *

Lütf eyləməgə xaneyi-əğyarə gəlürsən,
Gəlsən də bana, sevdigim, azarə gəlürsən.

Bildim bəni görmək degil, ey şux, muradın,
İllərlə səfa etdigin ixbarə gəlürsən.

Yarın kərəmi qeyrə, sana şəfqəti yoxdur,
Bir gün sözimə, ey dili-avarə gəlürsən.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bin kərrə qəmü möhnəti-əğyar ilə, cana,
Həm öldürür üşşaqi, həm inkarə gəlürsən.

Hiç yadinə almaz, Şərəfa, namını eyvah,
Bilməm nə zəman xatiri-dildarə gəlürsən.

* * *

Ələminlə bəni naçar, dili biqərar edirsən,
Demə bari, ey sitəmkar, neçün ahü zar edirsən,

Biləyim, inayət eylə, fələk əsli nəysə söylə,
Bəni hər zəman böylə niyə dilfikar edirsən?

Varub asitani-yarə, deyəyim o şivəkarə,
Qəmü cövrü intizarə bənimi düçar edirsən.

Yanılub dili-fütadə, səri-kuyi-dilrübadə,
Həmə sirri-eşqi yadə, neçün aşikar edirsən?

Töküb əşki-xunnisarın, saçub ahi-pürşərarın,
A könül, yanında yarın bəni şərmsar edirsən.

Bana bəxti-nasəzayi, yenə eyləyüb cəfayi,
Necə daği-binəvayi, o gülə həzar edirsən.

Nədən, ey sipəhri-bidad, bumı sanə şərtü mö`tad,
Şərəfi ələmlə naşad, bəni qəmşüar edirsən.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Qaçınma, navəki-müjgani-yarə dil məqam olsun,
Şəhidi-tiği-eşq həsrədək aləmdə nam olsun.

Məcaz olsun, bulunsun qalmasun dil eşqdən xali,
Xəyalimdə o xali-ənbərin olsun da, xam olsun.

Diriğ etmə, əyağın öpəyim bəzmi-məhəbbətdə,
Meyi-şövqinlə könlüm, saqiya, məsti-müdam olsun.

Tükəndi əqlü fikrü səbr, bir can qaldı canansə,
Anı da eyləyim təslim, alsun, iş təmam olsun.

Həlal etmə, sənin dilsiri-xani-eşqinəm, qeyrin,
Edərsəm ne'məti-vəslin təmənni gər, həram olsun.

Çəmənzari-dilə, ey nəxli-işvə, ərzi-rəftar et,
Şərəf də sayeyi-lütfində məsrurü bəkam olsun.

* * *

Rəqibə ne'məti-vəslinlə ehsan etmək istərsən,
Bəni, ey bimüruvvət, vəqfi-hicran etmək istərsən.

Dili-əğyari təşrifinlə mə'mur etmədən məqsud,
Binayi-xatirim bildim ki, viran etmək istərsən.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Tağılmış gərdəni-billurin üzrə zülfi-səmmurin,
Yenə əhvali-üşşaqi pərişan etmək istərsən.

Bəni bu rütbə ağlatmaqdan, ey eşq, anladım qəsdin,
Şirişki-çeşmimi bir bəhri-ümman etmək istərsən.

Şərəf, yox səndə zərrə qabiliyyət, gün kibi zahir,
Nə ümmid ilə bilməm, ərzi-ürfan etmək istərsən.

* * *

Müjgani-yar o mərtəbə ta səhharələnməsün,
Çeşmi-füsunkarın adı qarələnməsün.

Etməz qəbuli-mərhəm olur aqibət tələf,
Hicran oxuyla sineyi-dil yarələmməsün.

Təkrar seydi müşkil olur sonra, sevdigim,
Ürkütmə, mürği-könlümüz avərələnməsün.

Üşşaqə də düşər dəm olur növbəti-vüsal,
Səbrim libası kibi rəqib parələnməsün.

Bulsun nəticə məhkəmeyi-Kirdgardə,
Dəʾvayi-eşqimiz, Şərəfa, arələnməsün.

* * *

Canımi yaxan yenə ahi-dili-zar olmasun,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Qanıma girən əcəb müjgani-dildar olmasun.

Məsti-nazım, çeşmi-məxmurin süzülmiş, qorxuram,
Öldürürkən aşiqi hiddətlə bimar olmasun.

Yenə pək tulü diraz oldı zəmani-istiyaq,
Maneyi-vüslət, saqın, bəxti-sitəmkar olmasun.

Yüz çevirməm bir cəfadən, raziyəm hər qəhrinə,
Tək həman ol şux, ənisi-bəzmi-əğyar olmasun.

Var səri-kuyində yarın yenə bir mühriq səda,
Bax, Şərəf, dedikləri rüsvayi-biar olmasun.

* * *

Görməyincə vəchi-pakın, neyləyim dünyayi bən,
İstəməm, billah, sənsiz cənnətü həvrayi bən.

Asitanındır yeri sayəndə, ey ruhi-rəvan,
Laneyi-mürği-dilə, cay eyləməm tubayi bən.

Nəhri-bipayani-əşkim, edəcək cuşü xüruş,
Bir içim su dənlü almam eynimə dəryayi bən.

Ehtiyacım yox, fələk bilməm neçün darat edir,
Yerdə buldum gögdə ararkən o məhi-simayi bən.

Yarına salma, bu gün öpdür əyağın, saqiya,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bilməzəm məstəm, nədir emruz ilə fərdayi bən.

Əşkü ahımdır güvah, eşqimdə sor kazibmiyəm,
Qadirəm isbatə, cana, etdigim də'vayi bən.

Açdı yer-yer qönçeyi-dağım, donandı səhni-dil,
Neyləyim, ey bülbüli-şeyda, güli-rə`nayi bən.

Aqibət bir ahi-atəşbar ilə şimdi, Şərəf,
Vaqif etdim halimə, ol şuxi-müstəsnayi bən.
Fariğəm qeydi-cəhandən, şahə yoxdur minnətim,
Eylədim cayi-əməl, dərgahi-Mövlanayi bən.

* * *

Rö`yət o şəhi dövlət imiş, bilməz idim bən,
Dövlət dilə ol rö`yət imiş, bilməz idim bən.

Kaşaneyi-əndişəyə təşrifi-xəyali,
Bir növ' məgər vüslət imiş, bilməz idim bən.

Vadiyyi-səfadır, der idim bağı-məhəbbət,
Bir aləmi-pürmöhnət imiş, bilməz idim bən.

Yox mən'inə tədbiri-müdavat ilə çarə,
Eşq əhli-dilə illət imiş, bilməz idim bən.

Həmbəzmi-rəqib olma, deyü fərti-niyazim,
Yarə səbəbi-nifrət imiş, bilməz idim bən.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Rədd etdi nisar eylədigim cövhəri-əşki,
Yar anladı biqiymət imiş, bilməz idim bən.

Ah etdigim əğyar ilə gördükcə o şuxun,
İndində, Şərəf, töhmət imiş, bilməz idim bən.

* * *

Səri-kuyində, ey sərvi-xuraman, dil həzar olsun,
Ləbin vəsf eyləsün, gül bülbülindən şərmsar olsun.

Behəy, birəhmü şəfqət, ərzi-didar et, dili-zarım,
Bir az da dövləti-hüsnində varsun kamkar olsun.

Çıxarma tiri-qəmzən, ey qaşi ya, zəxmi-sinəmdən,
Toxunma, öylə dursun yadigarü bərgüzar olsun.

Degil zatın kibi, cana, xəyalın bivəfa hər dəm,
Yeni başdan yapar viranə könlüm lütfi var olsun.

Rəqibani edərsən, daima vəslin ilə xəndan,
Həman cövrinlə biçarə Şərəfmi, zarü zar olsun.

* * *

Almaq güc imiş yarımı əğyarın əlindən,
Bülbül gülini gurtaramaz xarın əlindən.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Püratəş olub getdi yanımdan o cəfacu,
Yanub yaxulurkən dili-naçarın əlindən.

Cövrə bəni şayəstə görür, lütfə rəqibi,
Fəryad o sitəmkarü o qəddarın əlindən.

Olmazmı, giribanımı almaq bana ruzi,
Əndişeyi-əğyari-təbəhkarın əlindən.

Hər vəchlə sığmaz, Şərəf, övraqi-sipehrə,
Çəkdiklərimi yazsam əgər yarın əlindən.

* * *

Qaçınmam cövrü azarından istərsə şədid olsun,
Qəmi-eşqin deməm bir ləhzə könlümdən bəid olsun.

Xumaraludi-firqət eyləyüb əğyari-bədkari,
Ləbin ərz eylə, məst et, bəndəni şövqi-cədid olsun.

Bıraqmam həşrədək, dört əllə tutdum qeyri dildarın,
Yədin çəksün rəqiban damənindən, naümid olsun.

Nişangah et bəni, qaşı ya, gəl, atma yabanə,
Dəmadəm tiri-qəmzən səhni-sinəmdə bədid olsun.

Şərəfzarın budur həqqində Həqdən mətləbi, cana,
Şəbin Qədri-səid, ömrün məzid, hər ruzin id olsun!



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Lal eylədi eşqin bəni, cana, nə sanursan,
Zəbt eylədi zülfin dili, divanə sanursan.

Hiç acımadın leylü nəhar, ey güli-xoşbu,
Guş eyləyüb əfğanımı əfsanə sanursan.

Yox zahirü batində, yenə sənsən, əfəndim,
Bu bəndeyi-dirinəni, cana, nə sanursan.

Bən aşiqi-şuridəvü üftadənəm, ey şux,
Zənnim bu ki, kəndin kibi biganə sanursan.

Təsviri-cəmalın yalınız lövheyi-dildə,
Cana, Şərəfin könlünü bütxanə sanursan.

* * *

Bana, ey mah, meylin bir zəmanmış, şimdi bildim bən,
Rəqibə rəğbətin gündən əyanmış, şimdi bildim bən.

Fəqiri etmədən əğyarə qarşu məzhəri-təltif,
Məgər üşşaqi-zarın imtəhanmış, şimdi bildim bən.

Sitəm, ərzi-məhəbbət, arizuyi-vüslətü ülfət,
O şuxə cümləsi bari-giranmış, şimdi bildim mən.

Degilmiş nafilə suzü güdazi həmçü pərvanə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şərəf də nari-eşqi-yarə yanmış, şimdi bildim bən.

Nüqudi-əşk ilə üşşaq, bazari-məhəbbətdə,
Necə bin dərdü möhnətlər qazanmış, şimdi bildim bən.

* * *

Saqiya, Allah içün məclisdə keç ibramdən,
Məsti-eşqəm, nəs'əyab olmam meyi-gülfamdən.

Zümreyi-üşşaqdən te`dad olunmaz aqibət,
Keçməiyncə qeydi-namusü vəqarü namdən.

Getdi bipərva nə səmtə, ah ol mehru deyü,
Şəm' ilə yandım, tutuşdum sübhədək axşamdən.

Bulmadı bir vəfqi-xatir rə'yü tədbirim hüsul,
Dad bəxti-dundən, fəryad dili-nakamdən.

Söylədərsən hər kimi, bin dərdü bin dilxahi var,
Görmədim bir şəxsi məmnun, gərdişi-əyyamdən.

Nəzmi-Fəhmi bəg əfəndiyə nəzir olmaz, Şərəf,
Qəlbi-paki iktisabi-feyz edər ilhamdən.

* * *

Saqiya, qanım ilə doldur qədəhlər boş ikən,
Yarə sun, fürsət dəmidir sağəri meynuş ikən.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Edəməz əlbət səbah, həşrədək dəf`i-xumar,
Cami-ləbrizi-məhəbbətdə könül sərxoş ikən.

Varmı kəştiyi-dilə cayi-səlamət, neyləsün,
Bəhri-bipayani-əşkim, daima pürçuş ikən.

Çərxi yıxmazsa, yıxar ahi-dərunim çıxmasun,
Əlhəzər, açdırma ağzım, ey fələk, xamuş ikən.

Nəzmi-miri-Naciyi-xoşguyə bipərva, Şərəf,
Eyləmiş cür’ət, nəzirə söyləmiş bihuş ikən.

* * *

Gül yanında dikən dizin-dizin,
Ötə tur əndəlib həzin-həzin.

Vəsli-dildarə irmək istərsən,
Nəğdi-can ver, könül, pəşin-pəşin.

Yandı dil atəşi-məhəbbət ilə,
Əsmə, badi-səba, sərin-sərin.

Yolına ol təbibi-çarərəsin,
Xəstə könlüm baxar məlin-məlin.

Sorma hali-dərunimi, Şərəfa,
Talma bəhri-qəmə dərin-dərin.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Dök simi-əşki, kar həm olsun, həm olmasun,
Sövqi-əməldə yar həm olsun, həm olmasun.

Dəryayi-yə’sə saldım ümidim səfinəsin,
İmdadi-ruzigar həm olsun, həm olmasun.

Bəzmi-vüsalə olmayacaq məhrəm əndəlib,
Damani-güldə xar həm olsun, həm olmasun.

Eşqinlə ahü zar edərəm həşrədək sənin,
Məqbulin ahü zar həm olsun, həm olmasun.

Olmazsa zivəri-səri-məqsud, o virdi-naz,
Hər sal növbəhar həm olsun, həm olmasun.

Tənhacə bəzmi-ülfətə, ey şuxi-dilfərib,
Sən gəl, Şərəffikar həm olsun, həm olmasun.

* * *

Könül, olduq ah məhcur yenə məh sitarəmizdən,
Həmə zar isək də mə`zur, bu siyəh sitarəmizdən.

Əsər eyləməzsə ahım, dəmi-həşrədək pənahım,
Həzər eylə yenə, şahım, dili-parə-parəmizdən.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Saqın, atəşəm sərapa, yanaram cirağasa,
Dəm ola fələk də, cana, tutuşa şərarəmizdən.

Soralım o yarə, ey dil, bizi vəslə etsə nail,
Nə zərər olurdı hasil, əcəba, nəzarəmizdən.

Bulamam səfayə mütləq, hələ dildə cayi-əlyəq,
Qəmi-hicri-yar ilə bax, su sızarmı arəmizdən?

Mərəzi-fəraqi təndə, qomadı məcal bəndə,
Mədəd, ey təbib, sən də kəs ümidi carəmizdən.
Edər eyləməz sonın yad, bu nüqudi-əşki bərbad,
Şərəfa, həzar fəryad, bu dili-avarəmizdən.

* * *

Aşiqi-şuridədil dildarın eylər arizu,
Əndəlib, ey qönçəfəm, gülzarın eylər arizu.

Tağə çıxsam, dil görüb sünbül edər zülfin xəyal,
Sərvə baxsam, gözlərim rəftarın eylər arizu.

Fərti-heyrət ilə lal olsun, güli-ayinəru,
Tutiyan bağda şəkər göftarın eylər arizu.

Bir zəman olmışdı məzhər iltifati-yarə, ah,
Yenə divanə könül təkrarın eylər arizu.

Etmə tə'xir, əl-mədəd qurbani-eydi-vüslətəm,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Cani-zarım qəmzeyi-xunxarın eylər arizu.

Məsti-eşqəm, sun, əyağın öpəyim, etmə diriğ,
Saqiya, könlüm meyi-sərşarın eylər arizu.

Vəsli-yar asan degil, səhranişin olsam, Şərəf,
Qeys Leylasın görüb kuhsarın eylər arizu.

* * *

Çarəsaz ol, aşiqi-naçarə, Allah eşqinə,
Mərhəmət qıl bu dili-qəmxarə, Allah eşqinə.

Suzi-həsrət bağrımı etdi kəbab, ey dilfərib,
Sun meyi-lə’li-ləbin bən zarə, Allah eşqinə.

Bir nigəhdə hər biri bin zəxm açar üşşaqinə,
Vermə rüxsət qəmzeyi-qəddarə, Allah eşqinə.

Runüma çeşmi-füsunkarində səd biganəlik,
Uyma, ey sahibvəfa əğyarə, Allah eşqinə.

Aşiqanə qıl, Şərəf, tənzir Nəsibin nəzmini,
Şe`rinə tə’sir ver həmvarə, Allah eşqinə.

* * *

Bax, çeşmi-xunnisarə yenə ah, ah, ah,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ahım saçar şərarə yenə ah, ah, ah.

Çıxsa fəğanü nalələrim ta sipehrədək,
Etməz əsər o yarə yenə ah, ah, ah.

Ahım kibi həvalənüb ol tiri-qəmzələr,
Mürği-dili şikarə yenə ah, ah, ah.

Səngi-nədamət ilə dil ayinəsin fələk,
Göstərdi parə-parə yenə ah, ah, ah.

Oldu bu növzəminin ilə yarə, ey Şərəf,
Razi-dil aşikarə yenə ah, ah, ah.

* * *

Rişteyi-zülfi-pərişan dolaşır əldən ələ,
Dəsteyi-sünbülü reyhan dolaşır əldən ələ.

Dəgməsün zülfinə kimsə, deyü tənbih eylər,
Şanə kim, çak olaraq san dolaşır əldən ələ.
Kimsəyə surəti-zahirdə görünməz, lakin,
Dilbər içrə dili-pünhan dolaşır əldən ələ.

Busədə qət'i-yədi-aşiqə eylər ima,
Turmaz ol xəncəri-üryan dolaşır əldən ələ.

Vəsfi-ruyində olan hər vərəqi-şe'r, Şərəf,
Qönçeyi-gül kibi hər an dolaşır əldən ələ.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Qanı ol dəm səninlə həmzəbandım, ah əfəndim ah,
Meyi-lə’linlə məsti-sərgirandım, ah əfəndim, ah.

Görüb təb’ə müvafiq yek-dü ruzə, bəxti-bədkari,
Fələkdə yıldızım sə’d oldı sandım, ah əfəndim, ah.

Tələbkari-vüsalın olalı bazari-eşq içrə,
Nə nəqdi-dərdü möhnətlər qazandım, ah əfəndim, ah.

Nola, cuyi-şirişkim kibi dünya çıxsa eynimdən,
Qəmi-hicrinlə canımdan usandım, ah əfəndim, ah.

Keçən övqatımız gəldikcə manəndi-Şərəf yadə,
Şirişki-xunaludə boyandım, ah əfəndim, ah.

* * *

Fəzayi-dərdü qəmin yeksüvariyüz biz də,
Ki, Qeysü Kuhkənin yadigariyüz biz də.

Diriğ eyləmə, rətli-girani-ümmidi,
Fələk, bu meykədənin badəxariyüz biz də.

Rəqib eyləyəməz payimali-qəhrü cəfa,
Fütadə dərgəhi-canan qübariyüz bizdə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nə qəm səfavü fərəh qət`i-ülfət eylər isə,
Şəhənşahi-ələmin yari-ğariyüz biz də.

Şərəf, nəzirə təriqində ruhi-Vəcdinin,
Müdam sənciləyin şərmsariyüz biz də.

* * *

E᾽timad etməm o zalim gər bəni şad etsə də,
Qəsdi yıxmaqdır dili-viranım, abad etsə də.

Naili-bəzmi-vüsal olmam bən, ey şirinləbim,
Badeyi-eşqin əsərdə misli-Fərhad etsə də.

Bəzmi-eşqi-yardən çəkməz əyağın yenə dil,
Saqiyi-cami-qəza imhali-irşad etsə də.

Ruzgari-zurkarə etməm əsla sərfüru,
Gülşəni-amalımi hər an bərbad etsə də.

Arizuyi-vəsldən gəlməz, Şərəf, təb`ə kəsəl,
Aşiqə azarü cövri yar mö᾽tad etsə də.

* * *

Qandadır bilsəm əcəb, ol məhi-təl᾽ət bu gecə,
Kimləri eylədi şayəsteyi-vüslət bu gecə.

Bən xəyalınla sənin suzü güdaz etdikcə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yaxdı pərvanələri atəşi-qeyrət bu gecə.

Necə tə’bir edəyim duşdə gör, ey şuxi-cəhan,
Çəkdigim möhnətü alami nəhayət bu gecə.

Aləmi eylədi bidar, fəğanü ahım,
Nədir, ey bəxti-siyəh, səndəki qəflət bu gecə.

Əsəri-suzişi-naləm, Şərəfa, cananın,
Mum edər qəlbini ahənsə də, əlbət bu gecə.

Sər bəbalini-niyaz ol çəkilüb vəhdətdə,
İrişür pirdən imdadü inayət bu gecə.

* * *

Fikri-vəslinlə xəyalındır, əfəndim, hər gah,
Həp sima`xaneyi-xatirdə dönənlər, billah.

Etmə tə’yib pənah eylər isə dərgahın,
Mübtəladır sana biçarə könül neyləsün, ah,

Ömrim oldıqca düçari-qəmi-əğyar olayım,
Başqa dildarə əgər eylər isəm ətfi-nigah.

Rastgu oldığın isbatə dili-naşadın,
Əşk ilə ahı yetər də’viyi-eşqində güvah.

Şərəfin hər nə qədər xak ilə yeksan isə də,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Asiqindir ələ al könlüni xahü naxah.

* * *

Verməyim yarə, könül, siqləti şimdən sonra,
Eyləsün hər kəs ilə ülfəti, şimdən sonra.

Namımı dəftəri-üşşaqdən etmiş ixrac,
Bən də yad etməyim ol afəti, şimdən sonra.

Əhdim olsun, qəmi-eşqiylə həlak olsam da,
Etməyim yarə yenə minnəti, şimdən sonra.

Bəni pabəsteyi-hicr etdi, əgər istər isə,
Açsun əğyarə dəri-vüsləti, şimdən sonra.

Gərçi fəhm olmadı, əmma bilinür əlbəttə,
Şərəfi-dilşüdənin qiyməti, şimdən sonra.

* * *

Dili-viranşüdəmə beyti-Xuda niyyətinə,
Gəlsə canan nolur, fərzi-əda niyyətinə.

Dili-divanəyə yüz verməz ikən azari,
Nə cəsarətlə gedər vəsli-rica niyyətinə.

Hali-düşvarimi etmişdi təfəəül dildar,
Fiqreyi-«Şahü Gəda» çıxdı, dila, niyyətinə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bu gecə bəzmə rəqib ilə eşitdinmi, könül,
Gəlmiş ol şux məgər, banə cəfa niyyətinə.

Ölmə var, rahi-məhəbbətdə, könül, dönmək yox,
Kuyi-yarə gedəlim canı fəda niyyətinə.

* * *

Nolsun bu qədər ahü fəğan, ah könül, ah,
Etdin bəni rüsvayi-cəhan, ah könül, ah.

Bir dərdə düçar etmədəsən başını əlbət,
Rahətmi bulur sanə uyan, ah könül, ah.

Gəh yar ələmin çəkmədəsən, gəh qəmi-əğyar,
Gəlməzmi bu möhnətdən usan, ah könül, ah.

Yox mədxəli heç bəxti-siyahın bilirəm həp,
Sənsən bəni bu halə qoyan, ah könül, ah.

Aləmdə sənin kibi həman bir də Şərəfdir,
Canan içün canə qıyan, ah könül, ah.

* * *

Keçdi əğyar, diriğ, aşiqi-zarın yerinə,
Qoydı ol qönçeyi-tər zağı həzarın yerinə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Mahruyanını ərz etsə fələk, bən birisən,
Qomayım yinə o xurşidi-üzarın yerinə.

Ruzü şəb cavü qərargahi olur daməni-gül,
Daima qibtə edərsəm nola, xarın yerinə.

Yar etməzsə dəva şərbəti-Loğman ilə də,
Gəlməz, ey xəstə könül, cani-nizarın yerinə.

Tutamaz sidqi-məhəbbətdə yerin bilsün o şux,
Kim gəlürsə Şərəfi-sinəfikarın yerinə.

* * *

Layiqi-qəhrin isəm də, yetər, ey bəxti-siyah,
Halimə şəfqət ilə qıl nəzər, ey bəxti-siyah.

Ruyi-cananə baxub rövşən olan didələrim,
Şimdi həsrət ilə qanlar dökər, ey bəxti-siyah.

Gecələr ta bəsəhər etdigim ahü fəryad,
Nə sana etdi, nə yarə əsər, ey bəxti-siyah.

Dutsa dünyayi dərunim şərəri, mə‘zurəm,
Nari-firqətlə kül oldı cigər, ey bəxti-siyah.

Həm bəni, həm Şərəfi tiri-qəmü ənduhə,
Hər dəm etməkdəsən əlbət sipər, ey bəxti-siyah.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Bəstəri-qəmdə bənim kəsdi əmanım, bu gecə,
Bəxtimi etmədi bidar fəğanım, bu gecə.

Vəslinə xabdə vasil ola bilsəm deyərək,
Keçdi xülya ilə övqatü zəmanım, bu gecə.

Cüstcuyə o məhi gətdi şərari-ahım,
Aşkar oldu yenə suzi-nihanım, bu gecə.

Kimlərin haleyi-ağuşinə etdi rəğbət,
Qanda axşamlar əcəb ruhi-rəvanım, bu gecə.

Necə dəmdir o məhi görmədim, əncüm sanma,
Çıxdı əflakə Şərəf şö`ləfəşanım, bu gecə.

* * *

Lütfdir qəhri də yarın dili-naçarə, eyvallah,
Təriqi-eşqdə hər müşkilü düşvarə, eyvallah.

Bənəm bir aşiqi-şuridə kim, sərtabəpa canan,
Edərsə xəncəri-cövr ilə parə-parə, eyvallah.

Yıxarsa xatiri-viranəmi, mə’mur olur könlüm,
Həman neylərsə etsün, raziyəm dildarə, eyvallah.

Bilür əhli-məhəbbət, eyləməz tə’yib, mə’ zurəm.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nə çarə, edəməm bir vəchilə əğyarə, eyvallah.

Hünərmi Mövləviyə böylə tərzi-novzəmin əlbət,
Şərəf dərvişin övradı olur həmvarə, eyvallah.

* * *

Bəni vəslinlə, cana, bərmurad etdinmi bir kərrə?
Sən insaf eylə, məsrurül-fuad etdınmi bir kərrə?

Yaparsan xatiri-əğyari bin dəf`ə nəvazişlə,
Dili-məhzunimi şərtincə şad etdinmi bir kərrə?

Nədən yox böylə qədrü qiymətim indində, sultanım,
Bəni bazari-eşq içrə müzad etdinmi bir kərrə?

Edərkən qeyrilərlə zövqü şövq, Allah içün söylə,
Əcəb, bu bəndeyi-məhcuri yad etdinmi bir kərrə?

Şərəf də rastgu bir canfəda aşiqdir, əmma sən,
Rəqibin kizbi dənlü e'timad etdinmi bir kərrə?

* * *

Füruği-mehrə o rüxsari edəməm təşbih,
Cəhandə kimsəyə dildarı edəməm təşbih.

Savar fəğani üç ayda, solar gül üç gündə,
Dilə həzari, gülə yari edəməm təşbih.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Əşəd gəlür bana, ey hurieyn, o mərtəbə kim,
Əzabi-duzəxə əğyari edəməm təşbih.

Sən eylədikcə səfa, qeyrilərlə bir şey'ə,
Dilə hülul edən əfkari edəməm təşbih.

Su qoyamaz dəmi-həsrət əyağinə tufan,
Sirişki-çeşmimə ənhari edəməm təşbih.

O şuxə etsə əsər bə'd əzin desə, Şərəfa,
Bu nəzminə digər əş'ari edəməm təşbih.

* * *

Könlüm asıldı qaldı səri-zülfi-yardə,
Çəngəlköyində bən yalınız ahü zardə.

Əks etdi sanma, halimə rəhm eyləyüb həman,
İnlər bənimlə ta bəsəhər kuhizardə.

Vəslin sonı fəraq isə, lütfin vərasi cövr,
Dönməz nə çarə, çərxi-fələk bir qərardə.

Gülzari başinə yıxaram bülbülün əgər,
Gəlməz isə o gül bana əvvəl bəhardə.

Aməd-şüd eyldəikcə, gətür yardən xəbər,
Qoyma bəni, səba, kərəm et, intizardə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Azari-yarü möhnəti-əğyar kibi, Şərəf,
Məxsusdür sana sitəmi-ruzigardə.

* * *

Qurar bənim ilə canın fədayi könlüm də,
Bu rütbə ummaz idim, heç vəfayi könlümdə.

Rəqibi istəməyən bənmiyəm həman yalınız,
Bərabər etmədə bu müddəayi könlüm də.

Niçün gətirməz, edər buyi-zülfi-yarı diriğ,
Səbayə hər dəm edər bu ricayi könlüm də.

Savurdı cümləsini, badi-eşq qoymadı hiç,
Nə arizu, nə həvəs, nə həvayi könlümdə.

Olurmuş eyd bilirdim cəhandə yarə əgər,
Şərəflə eylər isə mərhəbayi könlümdə.

* * *

Etməm isnadi-xəta bən türreyi-tərralərə,
Uğradan sənsən qərib başım bənim sövdalərə.

Qanda baxdıysa təcəlli eylədi Leylayi-eşq,
Düşmədi divanə Məcnun nafilə səhralərə.

Ərzi-rəftar etsə də sayəndə, ey sərvi-rəvan,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Adəm eylərmi təmayül qaməti-tubalərə?

Gülşəni-eşqin həzaran zar edər, üşşaqı var,
Minnət etməm bən fəğani-bülbüli-şeydalərə.

Namurad ancaq bu aləmdə, Şərəf, bir sənmisən?
Vermədi mətləbü dilxahın fələk daralərə.

* * *

Gəl, ey bəridi-xocəstəqədəm, əyan söylə,
Nə haldadır əcəb, ol şuxi-dilsitan, söylə.

Məzaci dideyi-bimarı kibi xəstə imiş,
Dəxi düzəlmədimi, qıl səba bəyan, söylə.

Nə ariz oldı, nədir iztirabı, çarəsi nə?
Əlaci-hicri, təbiba, bana həman söylə!

Anarmı bəndəsin, ey qasidi-xəyali-nigar,
Rəqibi eyləmə məhrəm, əman, nihan söylə.

Lisani-hal ilə var, xaki-payi-cananə,
Gəl, ey şirişki-Şərəf, ol rəvan, əman söylə.

* * *

Yarəmə ümmidi-dərman etmədim, etməm yenə,
Dərdimi möhtaci-Loğman etmədim, etməm yenə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Öylə müstəğniməzacəm müddəti-ömrimdə bən,
Gördigim məhbubi canan etmədim, etməm yenə.

Sabitəm əhdimdə, olmam qeyri şahın bəndəsi,
Bir zəmanda kəsri-peyman etmədim, etməm yenə.

Macərayi-eşqini manəndi-Qeysü Kuhkən,
Dastani-bəzmi-yaran etmədim, etməm yenə.

Əyaği altına səndən qeyri, cana, kimsənin,
Seyli-əşkim şəkli-baran etmədim, etməm yenə.

Yardən başqa cəhandə kimsəyi, Mövla bilür,
Xaneyi-qəlbimdə mehman etmədim, etməm yenə.

İstəməm yari, degil əğyari incitmək, Şərəf,
Bilərək bir fərdə hicran etmədim, etməm yenə.

* * *

Yar rəhm etməz isə naləvü əfğanimizə,
Lütf edüb gəlməz idi külbeyi-əhzanimizə.

Bu şəb, ol şəm'ə muradımca yanub-yaxıldım,
Versə bu müjdəyi bir kimsə rəqibanimizə.

Durma, təqdim edəlim candən özgə, ey dil,
Ya nəmiz var verəcək həzrəti-mehmanimizə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bilsün ol şux dilər, bilməsün əlbəttə könül,
Faiqiz sidqü məhəbbətdə hər əqranimizə.

Biz Şərəflə ikimiz eylədik əhdü misaq,
Həp fəda etməgə canü dili cananimizə.

* * *

Dila, qeydi-qəmə bir kimsədən imdad olur, sanma,
Giribanın yədi-ənduhdən azad olur, sanma.

Yıxıldı xatirim bihudə meʾmari-nəvazişlə,
Fələk bir dəxi əvvəlki kibi abad olur, sanma.

Alışdım möhnətə ol rutbə, ey şuxi-cəfapişə,
Bənim şimdən gerü vüslətlə könlüm şad olur, sanma.

Əsər eylərsə ahım, qönçeyi-ümmidimə eylər,
Gülün, ey əndəlibani-çəmən, bərbad olur, sanma.

Şərəf, ərz eylərəm əlbəttə halım həzrəti-pirə,
O dərgahə qədimi aşinayəm, yad olur sanma.

* * *

Yarə izhari-cününimdən hicab etdim yenə,
Könlümə hər vəchilə lövmü itab etdim yenə.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Ərzi-halım baisi-xişmü cəlal oldı, diriğ,
Kəndi kəndim müstəhəqqi-piçü tab etdim yenə.

Ruzigari-namüsaidlə gedərmi fülki-dil?
Sahili-ümmidə bihudə şitab etdim yenə.

Bəzmi-hicran olsun amadə şərabi-əşkilə,
Atəşi-qeyrət ilə bağrım kəbab etdim yenə.

Yarə tə’sir etməz əmma, tubi-ahimlə, Şərəf,
Mülki-arami yeni başdən xərab etdim yenə.

* * *

Səhhət ummam təni-bimarimə şimdən sonra,
Çarə olmaz dili-naçarimə şimdən sonra.

Dəsti-yə’s ilə uruldı ləbimə möhri-sükut,
İrəməz kimsələr əsrarimə şimdən sonra.

Cürm imiş yarə sitəm etmə, məgər bilməz idim,
Verəyim tövbə dili-zarimə şimdən sonra.

Giryəm olmuş səbəbi-nifrət, umarkən şəfqət,
Baxmayım dideyi-xunbarimə şimdən sonra.

Nafilə gəzmə, yetər, cümlədən et qət’i-ümid,
Düş, Şərəf, dərgəhi-xunkarimə şimdən sonra.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Tərk etməsi yarın dili-lali, budur iştə,
Zövq etmənin illərlə məali, budur iştə.

Əğyar qəmindən, könül, olma mütəəllim,
Hər dilbərə kim meyl edə, hali budur iştə.

Məhbubdən ümmidi-mürüvvət edər üşşaq,
Biçarələrin fikri-məhali budur iştə.

Səhv ilə əman, uyma rəqibə, demiş oldum,
Yarın səbəbi-xişmü cəlali budur iştə.

Şirkətlə məhəbbət edəməz, çarə nə ülfət,
Həp əhli-dilin bəhsü cidali budur iştə.

Hicranə təhəmmül qəti gücdür dili-zarın,
Bən anladım, əfkarü məlali budur iştə.

Etmiş sana küştax, Şərəf, ərzi-məhəbbət,
Mə’zur tut, ey şux, vəbali budur iştə.

* * *

Bir bisitarə aşiqi-naçarəm, ah, ah,
Leylü nəhar olsa səzakarəm, ah, ah.

Cani-əzizi yarə fəda etmək istərəm,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

İştə budur nəticeyi-əfkarım, ah, ah.

Ey cuyi-əşk, söylə, bəni gördügin kibi,
Yad eylər isə həzrəti-dildarım, ah, ah.

Xeyli zəmandır almadım andan da bir xəbər,
Bilməm necoldı hali-dili-zarım, ah, ah.

Heyrətdəyəm, kimə sorayım, neyləyim, Şərəf,
Hicran ilində bən, necədir yarım ah, ah.

* * *

Alınca mu miyanın dil xəyalə, incədən incə,
Bulur sərriştə əsbabi-vüsalə, incədən incə.

Uzandı məbhəsi qılca qalınca canı üşşaqın,
Tolaşdi tari-zülfin qeylü qalə, incədən incə,

Bilür, hazırcəvabi-qəmzənə sor, hali-düşvarım,
Nə hacət bəndənə bin kəz sualə, incədən incə.

Oxunsun eynəki-idrak ilə babi-məhəbbətdən,
Xəti-tə'liq ilə yazdım risalə, incədən incə.

Üzülmə, zahida, sün`i-Xudadır, sən də qıl diqqət,
Təfəkkürlə bax ol qaşı hilalə, incədən incə.

Ümidi-iltifati-yar edərsən bəzmi-ülfətdə,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Düşərsən, ey könül, fikri-məhalə, incədən incə.

Edən şərtincə diqqət, gedəməz vadiyi-tənzirə,
Şərəf, nəzmi-Ləbibi-zikəmalə, incədən incə.

* * *

Təvəttün edəli xeyli zəmandır kuyi-dilbərdə,
Dili-şuridəm aram eyləməzsə, nola bir yerdə.

Pərişan olduğumçün tə’nü tə’yib eyləmə, zahid,
Nə çarə var imiş sövdayi-zülfi-yar əzbərdə.

Görüb məclisdə əğyar ilə yari olma azürdə,
Olur əlbət həzaran xar damani-güli-tərdə.

Rəqibi-bədsirişti həmdəm etdi aqibət ol şux,
Bən artıq minnət etməm, bəxti-dunim kibi namərdə.

Nola, Məmduh bəgin əş’ari məqbuli-cəhan olsa,
Şərəf, yoxdur bu dənlü nəzmi-dilkəş bir süxənvərdə.

* * *

Cami-vəslin gərçi sirabi-zülal eylər bəni,
Neyləyim, axır xumari-qəmlə lal eylər bəni.

Rəhgüzari-yarədir aməd-şüdin leylü nəhar,
Varmı, ey badi-səba, hiç bir sual eylər bəni?



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Etmədi tə'sir puladi-dəruni-dilbərə,
Yox yerə ahi-səhər aşüftəhal eylər bəni.

Bir nigahi-lütfə şayan etmədi həmçün Şərəf,
Yar cövrü hicr çəkməzmi, xəyal eylər bəni.

Eylərəm tənzir bipərva Fəhimin nəzmini,
Kim, Məsihi-himməti şirinməqal eylər bəni.

* * *

Təmayülün kimə, cana, bilinmədi getdi,
Təbiətin dəxi hala, bilinmədi getdi.

Səri-rəhindəmi, zülfindəmi vətən tutdı?
Qərargəhi-dili-şeyda bilinmədi getdi.

Rümuzi-eşqi bilən bilməyən edər iqrar,
Nədir həqiqəti əmma, bilinmədi getdi.

Bilindi dərdi-dili bülbülin fəğanından,
Gülin başındakı sövda, bilinmədi getdi.

Yaxar bir atəşə pərvanəsiylə kəndi özin,
Muradi-şəm'i-şəbara, bilinmədi getdi.

Edər nəvazişi yar ana, neyləsün əğyar,
Nə cürmi var, nə bu qovğa, bilinmədi getdi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Kimin əsiri, kimin aşiqi-fəkəndəsidir,
Şərəf dedikləri rüsva, bilinmədi getdi.

* * *

Ah, ey könül, Xudadən utanmazmısan dəxi?
Əşki-nədəmlə qanə boyanmazmısan dəxi?

Qanı, nə oldı dadər ilə madərü pedər,
Ey məsti-xabi-qəflət, oyanmazmısan dəxi?

Yaran birər-birər çəkilüb gedə sən yenə,
Bu mülki-bibəqadən usanmazmısan dəxi?

Bəzmi-fənadə saqiyi-gərdun ruzü şəb,
Zəhr içirər həman sanə, qanmazmısan dəxi?

Hər kəz derəm müxalifəti-ruzigar ilə,
Oldum, Şərəf, xərab inanmazmısan dəxi?

* * *

Kuhi-möhnətdə qərarım, səni sevdim sevəli,
Qeysü Fərhad ilə yarım, səni sevdim sevəli.

Gül kibi bəxtim olur busi-ləbindən xəndan,
Dideyi-aləmə xarım, səni sevdim sevəli.

Mehri-ruyin ilə zülfi-siyəhin fikr edərək,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Keçmədə leylü nəharım, səni sevdim sevəli.

Nəzər etməm fələgin laləvü sünbüllərinə,
Daği-dil oldı bəharım, səni sevdim sevəli.

Tutiyi-təb'im olur həmçü Şərəf, natiqəsaz,
Ey ləbi-qəndnisarım, səni sevdim sevəli.

* * *

Şərabi-yə's ilə dil, saqiya, məstanədir şimdi,
İki ceşmim tolı bəzmi-qəmə peymanədir şimdi.

Çirağì-eşqə əlbət can atar şəb ta səhər könlüm,
Əzəldən yanmağa pərvanədir, pərvanədir şimdi.

Nəzərgahi-xəyali-yardır, ya Rəbb, mə'mur et,
Sitəm səngiylə qəsri-xatirim viranədir şimdi.

Nədir bu bivəfaliq, qanı əski aşinalıqlar,
Bənimlə əqlü fikrim, ah kim biganədir şimdi.

Cününü möhnətü cövri-fələk əl verdi, sultanım,
Baxılmaz, saçma söylərsə Şərəf, divanədir şimdi.

* * *

Olsa Calinusü Əflatun, yoxdur çarəsi,
Mərhəmi-hicran ilə işlər məhəbbət yarəsi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Çilleyi-firqət nə dənlü səxt olursa çəkdirər,
Aşiqanın qüvvəti-bazusi, bəxti-qarəsi.

Sən yəmi-əşki səri-rahində etməglə tələf,
Seyd olurmi dilbərin mürği-dili-avarəsi?

Şöʾleyi-ahi sipehrə rubərah etsəm əgər,
Bir şərər ilə yanardı səbʾeyi-səyyarəsi.

Münkəsir etdin Şərəfzari, fələk, sən bəʾd əzin,
Cəm` olurmi, zənn edərsən xatiri-sədparəsi.

* * *

Yalnız sərdə qəmi-eşq degil ya baqi,
Dildə əndişeyi-əğyar də, cana, baqi.

Getdi bir-birini tə'qib edərək əqlü şəkib,
Qaldı könlümdə fəqət eşqi-dilara baqi.

Vəsldən mən' içün etsən nə qədr cövrü cəfa,
Zail olmaz yenə xatirdə o sevda baqi.

Şair ol, yoxsa bulur mal ilə övlad fəna,
Qala dersən əsərin, ey dili-şeyda, baqi.

Sən ölürsən o qalur, turma, həman söylə qəzəl,
Şərəfa, çünki degil kimsəyə dunya baqi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

* * *

Ərbabi-nəş᾽əmi, dili-xürrəmmi qalmadı?
Məclismi savdı badəmi, yox Cəmmi qalmadı?

Divanə könlüm əglənəcək yer bulunmadı.
Ya Rəbb, bir aləm etməgə aləmmi qalmadı?

Kuyindən aşiqani çıxardı o huri-eyn,
Şayəsteyi-behişt əcəb, adəmmi qalmadı?

Hiç kimsə dərdim anlamadı, yoxsa zəxmimə,
Köhnə dükani-çərxdə mərhəmmi qalmadı?

Bir fərdə ərzi-hal edəməzsən, Şərəf, əcəb,
İfşayi-raz etməgə məhrəmmi qalmadi?

* * *

Lütf etsün etməsün dili-naçarə bir dəxi,
Ərz etməyim məlalü  qəmim, yarə bir dəxi.

Bən cövrinə, cəfasinə, qəhrinə raziyəm,
Etsün, dilərsə könlümi sədparə bir dəxi.

Bari giran gəlür sitəmin yarə anladıq,
Rəncidə etmə, baxsa da əğyarə bir dəxi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Yıxsun binayi-qəlbini, yapsun o şivəkar,
Təslim ol, qarışma o bazarə bir dəxi.

Hiç anma, macərayi-rəqibi Şərəf kibi,
Çəkmə nədamət, ey dili-avarə, bir dəxi.

* * *

Ey dil, dəri-nigari pənah etmə bir dəxi,
Namusü qədri pəstü təbah etmə bir dəxi.

Ol şuxın eyləməz dili-sənginə əsər,
Suzişli nalə, səktəli ah etmə bir dəxi.

Yar ol da, bar olma derəm dinlə pəndimi,
Qıl tövbə etdiginə, günah etmə bir dəxi.

Yar istəməz, Şərəf səni, yox cürmi kimsənin,
Şəkvayi-çərxü bəxti-siyah etmə bir dəxi.

Düşmə nəzərindən, saqın, ol şux incinir,
Diqqətlə vəchi-yarə nigah etmə bir dəxi.

* * *

Cami-eşqin qətrəsi məstü xərab eylər məni,
Bəzmi-qəmdə gah çəngü gəh rübab eylər bəni.

Tağı-eyvani-sipehrə çıxdı dudi-suzi-dil,



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Nari-cövrin ruzü şəb, ey məh, kəbab eylər bəni.

Dildə mehmani-xəyalın şöylə surət verdi kim,
Ta bəsübh, ey məhvəşim, bitabü xab eylər bəni.

Bəxt bimayə, fələk qəddar, dilbər bibəfa,
Yox cəhandə hasili bir kamyab eylər bəni.

Nim sun həmçün Şərəf, ey saqiyi-bəzmi-səfa,
Cami-eşqin qətrəsi məstü xərab eylər bəni.

* * *

Dilin zə'fi-ələmlə kari fəryad olmadan qaldı,
Ləbi-atəşfəşanə, ah, mö'tad olmadan qaldı.

Əfəndim, çəkməsün me'mari-lütfin nafilə zəhmət,
Bənim viranə könlüm qeyri abad olmadan qaldı.

Bərayi-xatiri-əğyar, ey şuxi-cəfapişə,
Bana etdiklərin azar, tə'dad olmadan qaldı.

Müsəlmansan, inan ey bivəfa, biçarə dil şimdi,
Əsiri-kafəri-hicrandır, azad olmadan qaldı.

Şərəf, ol rütbə məhzun eylədi qəlbim ki, çərxi-dun,
Həzaran eydi-novruz olsa, dilşad olmadan qaldı.

* * *



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Andım o sərvqədlə keçən ruzigarımi,
Verdim yenə həvayə şəkibü qərarımi.

Etməzdim ərzi-hali-dili yadə aşikar,
Eşq almasaydı əldən əgər ixtiyarımi.

Ey ah, həddən aşsa da dərdi-dərunimə,
Agah etmək  istəməm ol şivəkarımi.

Məhcuri-bəzmi-vüsləti-dildarəm, ey fələk,
Mə'zur  lut, bu babdə bənim ahü zarimi.

Gəlsəm də rubəru o cəfakarə bən, Şərəf,
Şərh edəməm, şikayət olur inkisarımı.

* * *

Edər əlbət dəm olur, həzrəti-Allah səni,
Aşiqin dərdi-dili-zarinə agah səni.

Rövşən etdin bu gecə bəzmi-rəqibi bən də,
Gördigim yerdə bilə bilməyim, ey mah, səni.

Gərçi əğyar ilə zövq etmədəsən məxficə,
Qormı rahət biləməm, eylədigim ah səni.

Ülfət etməzdi degil, aşiqin olmaq bu qədər,
Bivəfa bilsə əgər bu dili-gümrah səni.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Şəbi-firqətdə, Şərəf, sübhə qədər yad edərəm,
Gəh şikayət dili-zarimlə gəhi gah səni.

* * *

Yar beytül-həzəni-sinədə mehmanım idi,
Zivəri-təxti-dilü canım o sultanım idi.

Badeyi-şövqə bədəl oldı sirişkim bu gecə,
Saqiyi-məclisimiz dün gecə cananım idi.

Bən qəmi-eşqdən etdikcə təşəkki bizzat,
Təsliyətbəxşi-dilim nitqi-dürəfşanım idi.

Şimdi həsrətlə necə ahü fəğan eyləməyim,
Bir zəman həmdəmim ol mehri-dirəxşanım idi.

Təkü tənha qalıcaq yarə dəmi-vüslətdə,
Ərz edən hali-dili dideyi-giryanım idi.

Qanı ol gün ki, əcəb ta bəsəhər dildarın,
Busi-payi, Şərəfa, şöhrətü samanım idi.

* * *

Ömrüm tükəndi, ah ki, möhnət tükənmədi,
Nəqdi-şəkib bitdi, bu həsrət tükənmədi.



Created by Neevia Personal Converter trial version http://www.neevia.com

Bən ruzi-vəslə can ataram, neyləim fələk,
Hərgiz diraziyi-şəbi-firqət tükənmədi.

Sərf eylədikcə artmadadır həmçü nəhri-Nil,
Ya Rəbb, bu seyli-əşki-məşəqqət tükənmədi.

Bir an xali qoyma bəni, ey xəyali-yar,
Mehmansərayi-sinədə söhbət tükənmədi.

Mə'yus isən də, eylə Şərəf, mətləbin tələb,
Növmid olma, rəhməti-Həzrət tükənmədi.

* * *



Created by Neevia Personal Converter trial version http://www.neevia.com